Günəş Şərqdən doğur!

№ 131 (5412), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 28 iyul 2021-ci il (çərşənbə)



## Dərslər sentyabrın 1-dən başlayacaq

(səh.8)



## Amerikalı qubernator Zəngilana gedəcək

### Con Kevin Stitt Azərbaycan Prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

(səh.2)

## Təhsil Nazirliyi müəllimlərin narazılığına cavab verdi



Təhsil Nazirliyi Müəllimlərin İşə Qəbul İmtahanlarında (MİQ) istifadə edilən suallarla bağlı müəllimlərin narazılıqlarına münasibət bildirib.

(səh.2)

# Möhtəşəm gələcək...

## Azərbaycan-Türkiyə-Pakistan arasında güclü ittifaq yaranır

Dünən Milli Məclisdə Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin Birinci Üçtərəfli Görüşü keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova Birinci Üçtərəfli Görüş çərçivəsində imzalanan Bakı Bəyannaməsi ilə bağlı tərəflərin bütün təklifləri nəzərə alınıb.



(səh.3)

## Paşinyan - Putin qarşıdurması gözlənilir



## Saatlar Kreml vaxtı ilə işləyir

(səh.8)

### Ermənilər Kəlbəcərdəki mövqelərimizi atəşə tutub

Məlumata görə, qarşı tərəf cavab atəşi ilə susdurulub

(səh.2)

### Ermənistan yekun sülh müqaviləsini şərtlə imzalayacaq

Həşim Səhrablı: "Konfliktin beynəlxalq müstəvidə həllini tapacağı ağlabatan deyil"

(səh.4)

### Gələcəkdə manat dəyərdən düşəcək

Uzun müddət məzənnəni sabit saxlamaq mümkün deyi

(səh.8)

### Tovuzda vəhşilik...

Ata oğlunu zəncirlə ağaca bağlayaraq döyüb

(səh.9)

# Dostluq və qardaşlıq əlaqələri möhkəmlənir





## Prezident İlham Əliyev Türkiyə və Pakistan nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə Türkiyə Böyük Millət Məclisinin sədrinin ölkəmizə səfərinin Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edildi. Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərin önəminə toxunularaq bildirildi ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi əlaqələrimizin daha yüksək səviyyəyə qalxmasına xidmət edir. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurlu işbirliyinin olduğu vurğulandı.

Bakıda keçiriləcək Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün önəmi qeyd edilərək bildirildi ki, bu görüş üç ölkə arasında mövcud olan birliyi nümayiş etdirir. Vurğulandı ki, Azərbaycan, Türkiyə və Pakistan arasında qardaşlıq əlaqələri mövcuddur. Həm Türkiyə, həm də Pakistanın Vətən müharibəsinin ilk anlarından Azərbaycana dəstəyinin mühüm rolu qeyd edildi.

Söhbət zamanı üç ölkə arasında əməkdaşlığın geniş mənada Avrasiyada yeni işbirliyi çərçivələri formalaşdırdığı bildirildi.

Görüşdə Azərbaycan və Türkiyə parlamentlərarası əməkdaşlığının da uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib.**

Pakistan Milli Assambleyasının sədri Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin və Baş nazir İmran Xanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Prezident İlham Əliyev Pakistan Prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Arif Alvinə və İmran Xana çatdırmağı xahiş etdi.

Milli Assambleyasının sədri dövlətimizin başçısını 44 günlük Vətən müharibəsində qazanılan Qələbə münasibətilə təbrik edərək Pakistan xalqının bu Zəfəri Azərbaycan xalqı ilə birlikdə qeyd etdiyini dedi.

Görüşdə Pakistan Milli Assambleyasının sədrinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin gələcək inkişafı baxımından önəmi qeyd edildi. Həmçinin Pakistan, Türkiyə və Azərbaycan parlamentlərinin sədrlərinin üçtərəfli görüşünün əhəmiyyəti vurğulandı, bu görüşün qardaş ölkələr arasında üçtərəfli tərəfdaşlığın inkişafı işinə xidmət etdiyi vurğulandı, Pakistan və Azərbaycanın bütün məsələlərdə hər zaman bir-birini dəstəkləyən qardaş ölkələr olduğu bildirildi.

Görüşdə İkinci Qarabağ müharibəsi zamanı Pakistanın dəstəyinə görə minnətdarlıq ifadə edildi, müharibənin ilk günlərindən dost ölkənin rəhbərliyinin Azərbaycanı dəstəklədiyi və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı önəmli bəyanatlar verdiyi qeyd olundu.

Söhbət zamanı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəklədikləri vurğulandı. Prezident İlham Əliyev Pakistana səfərini məmnunluqla xatırladaraq əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsinin zəruriliyini qeyd etdi.

Görüşdə Pakistan Milli Assambleyasının sədrinin Şuşaya edəcəyi səfərin əhəmiyyətinə toxunuldu və bu, ölkələrimiz arasında münasibətlərin inkişafının bariz nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı ölkələrimizin parlamentləri arasında əməkdaşlığın inkişafı məmnunluqla qeyd edildi.



## Amerikalı qubernator Zəngilana gedəcək

### Con Kevin Stitt Azərbaycan Prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin Azərbaycana səfərinin əhəmiyyətinə toxunuldu. Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi, ölkəmizin ABŞ-nın ayrı-ayrı ştatları, o cümlədən 2000-ci ilin əvvəllərindən Oklahoma ştatı ilə əməkdaşlığından məmnunluq ifadə olundu.

Con Kevin Stitt Zəngilan rayonuna edəcəyi səfərinin Azərbaycanın həmin ərazilərdə icra etdiyi "yaşıl enerji" və "ağıllı kənd" layihələri ilə yaxından tanış olmağa imkan yaradacağına ümid etdiyini bildirdi.

Oklahoma Milli Qvardiyası ilə Azərbaycanın Müdafiə Nazirliyinin təxminən 20 ildir əməkdaşlıq etdiyi və indi bu əməkdaşlığın daha geniş tərəfdaşlıq formatına çevrildiyi vurğulandı.

Söhbət zamanı Oklahoma ştatı ilə kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə toxunuldu, azərbaycanlı tələbələrin bu ştatda kənd təsərrüfatı üzrə təhsil aldıqları məmnunluqla qeyd edildi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

*Sonda xatirə hədiyyələri təqdim olundu.*



## Ermənilər Kəlbəcərdəki mövqelərimizi atəşə tutub

### Məlumata görə, qarşı tərəf cavab atəşi ilə susdurulub

**Dünən saat 16:00-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Zərkənd kəndləri ərazisində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik və Yuxarı Ayrım kəndləri ərazisindəki mövqelərini snayper tüfəngi, avtomat və pulemyotlardan atəşə tutub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib. Məlumata görə, qarşı tərəf cavab atəşi ilə susdurulub. Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

# Təhsil Nazirliyi müəllimlərin narazılığına cavab verdi

Təhsil Nazirliyi Müəllimlərin İşə Qəbul İmtahanlarında (MİQ) istifadə edilən suallarla bağlı müəllimlərin narazılıqlarına münasibət bildirib.

Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov bununla bağlı bildirib ki, 5 iyul tarixindən etibarən baş tutmuş müəllimlərin işə qəbulu müsabiqəsinin imtahan mərhələsində istifadə edilmiş sualların elmi-statistik təhlili aparılıb.



Aparılmış elmi-statistik tədqiqat çərçivəsində müxtəlif fənlər üzrə 5,040 test tapşırığı əhatə olunmaqla sualların məzmun xüsusiyyətləri, çətinlik dərəcəsi, diskriminasiya əmsalı təhlil edilib: "12 iyul tarixində keçirilmiş ibtidai sinif, 23 və 26 iyul tarixlərində keçirilmiş Azərbaycan dili və ədəbiyyat müəllimliyi üzrə seanslarda istifadə edilmiş test tapşırıqlarının bu fənlər üzrə digər tarixlərdə keçirilmiş seanslarda istifadə edilmiş test tapşırıqlarından çətinlik dərəcəsinə görə fərqləndiyi müəyyən edilib. Bu seanslarda texniki xüsusiyyətləri baxımından fərqlənən test tapşırıqlarına görə namizədlərə əlavə ballar veriləcək.

Qeyd edilən tarixlərdə imtahanlarda iştirak etmiş namizədlər üçün təkrar imtahan imkanı da yaradılacaqdır. İmtahanlarda iştirak könüllü xarakter daşıyır. Təkrar olaraq imtahanlarda iştirak edən namizədlərin vakansiya seçimi mərhələsində son imtahan nəticəsi nəzərə alınacaq. Müəllimlərin işə qəbulu müsabiqəsində ədalətli rəqabət mühitinin qorunub saxlanılması Təhsil Nazirliyinin əsas məqsədidir. Qeyd edək ki, təkrar imtahan vermək arzusunda olan namizədlər 28 iyul saat 11:00-dan 30 iyul saat 23:59-dək şəxsi səhifəyə daxil olaraq "müraciət et" butonuna klikləməklə qeydiyyatdan keçərək təkrar imtahanda iştirak edə bilər".

*Qeyd edək ki, iyulun 5-dən etibarən start verilən müəllimlərin işə qəbulu imtahanları avqustun 2-dək davam edəcək.*

*5-8 iyul tarixlərində keçirilən imtahanlarda 9 628 namizəd iştirak edib. Namizədlərdən 7 nəfər 60 bal toplayaraq ən yüksək nəticə göstərib. İyulun 9-da 2021-2022-ci tədris ili üzrə müəllimlərin işə qəbulu imtahanları keçirilib.*

**Aynurə**



# Möhtəşəm gələcək...

## Azərbaycan-Türkiyə-Pakistan arasında güclü ittifaq yaranır

Dünən Milli Məclisdə Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin Birinci Üçtərəfli Görüşü keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova Birinci Üçtərəfli Görüş çərçivəsində imzalanan Bakı Bəyannaməsi ilə bağlı tərəflərin bütün təklifləri nəzərə alınıb. Daha sonra spiker Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysər Bakı Bəyannaməsini imzalayıblar. S.Qafarova bildirib ki, imzalanan üçtərəfli format və Bakı Bəyannaməsi ölkələrimiz arasında strateji əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verəcək.

**“İkili standartların artması bizi qardaş dövlətlər olaraq daha sıx əməkdaşlığa məcbur edir”**

**Milli Məclis sədri Sahibə Qafarova vurğulayıb ki, ikili standartların artması bizi qardaş dövlətlər olaraq daha sıx əməkdaşlığa məcbur edir:** ”2020-ci il Azərbaycan tarixinə Şanlı Zəfər ili kimi daxil olub. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbə qazanıb, torpaqlarını işğaldan azad edib. İkinci Qarabağ savaşında Türkiyə və Pakistan Azərbaycana dəstək verib. Türkiyə və Pakistan işğalçı Ermənistanla diplomatik əlaqələr də qurmayıb. Biz buna görə qardaş Türkiyə və Pakistana minnətdarıq. Biz də beynəlxalq platformalarda bu qardaş ölkələri dəstəkləmişik”. Sədr nəzərə çatdırıb ki, beynəlxalq münasibətlərdə ikili standartlar hələ də qalmaqdadır: ”İkili standartların artması bizi qardaş dövlətlər olaraq daha sıx əməkdaşlığa məcbur edir. İnanıram ki, bu gün əsasını qoyduğumuz üçtərlfi format qardaşlıq əlaqələrimizin möhkəmlənməsinə töhfə verəcək. Parlamentlər arasında sıx əməkdaşlıq xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacaq, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraqlarımızı müdafiə edəcəyik”.

**“Zəngəzur dəhlizi Pakistandan Türkiyəyə yeni koridoru təmin edəcək”**

Spiker bəyan edib ki, Zəngəzur dəhlizi həm də qardaş Pakistandan Türkiyəyə, Azərbaycana qədər yeni koridoru təmin edəcək. S.Qafarova deyib ki, bu gün artıq Zəngəzur dəhlizinin bərpa olunması üçün addımlar atılır: ”Bu, Türkiyə ilə Azərbaycan arasında birbaşa və daha səmərəli əlaqəni təmin edəcək bir dəhlizdir. Bildiyiniz kimi, Xəzər dənizi vasitəsilə Əfqanıstan və Mərkəzi Asiyanı Cənubi Qafqaz regionu və Türkiyə ilə birləşdirən Lapis Lazuli dəhlizi regional nəqliyyat əlaqələrini getdikcə genişləndirməkdədir. Zəngəzur dəhlizi işə salındıqdan sonra qardaş Pakistandan Türkiyəyə qədər olan nəqliyyat xəttinin səmərəli fəaliyyəti reallığa çevriləcək. Bu, tarixən bir-birinə yaxın olmuş xalqlarımız arasında əlaqələrin yenidən canlanmasını təmin edərək, onların rifahının yüksəlməsinə böyük töhfə verəcək”. Spiker qeyd edib ki, üçtərəfli format çərçivəsində görüşlərin davamlı keçirilməsi vacibdir: ”Bu platforma ölkələrimizin daha sıx birləşməsinə imkan yaradacaq. Üçtərəfli görüş çərçivəsində Bakı Bəyannaməsi qəbul ediləcək. Bəyannamədə parlamentlərarası dialoq, ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirmək, beynəlxalq təşkilatlarda birgə addımlar atmaq, beynəlxalq məsələlərin həllinə parlament dəstəyinin təmin olunması əhəmiyyətli olacaq. Minalanmış ərazilərin xəritəsinin Azərbaycana verilməsinə dəstəyi də mühüm hesab edirəm”.





## Yaxın gələcəkdə hərbi-siyasi müttəfiqliyin şahidi olacağıq

**“Azərbaycan-Pakistan-Türkiyə münasibətləri xalqlarımız arasında qarşılıqlı etimada söykənir”**

Parlament sədrinin sözlərinə görə, bu formatda ilk görüş tarixdə öz yerini tutacaq: ”Azərbaycan, Pakistan və Türkiyə münasibətləri xalqlarımız arasında qarşılıqlı etimada söykənir. Müasir beynəlxalq münasibətlər sisteminin reallıqları mövcud müttəfiqlik münasibətlərinin gücləndirilməsi zərurətini irəli sürür”.

**“Bakı Bəyannaməsi bölgəmizin təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək”**

**Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop deyib ki, görüşün Bakıda keçirilməsi çox sevindiricidir:** ”İnanıram ki, bu formatda görüşlərin keçirilməsi üç qardaş ölkə arasında münasibətləri daha irəli aparacaq. Bu, bölgəmizin təhlükəsizliyi və əminamanlığının təmin edilməsinə öz töhfəsini verəcək. Üçtərəfli münasibətləri institutlaşdırmaq baxımından bu sənəd mühüm rol oynayır”.

**“Müharibəni uduzan Ermənistanın imzaladığı anlaşmanın şərtlərini yerinə yetirəcəyinə inanırıq”**

**Mustafa Şentop deyib ki, müharibəni uduzan Ermənistanın imzaladığı anlaşmanın şərtlərini yerinə yetirəcəyinə inanırıq:** ”Ermənistanın Azərbaycanın sülh anlaşması çağırışına cavab verməsi vacibdir. Şimali Kipr probleminə də toxunan Mustafa Şentop qeyd edib ki, Şimali Kipr Türk Cümhuriyyətinin təkliflərinin sülhü təmin edəcəyinə əmindirlər: ”Səməd Seyidovun rəhbərlik etdiyi nümayəndə heyətinin 20 iyulda Şimali Kiprə səfərini yüksək dəyərləndirir və bu kimi səfərlərin artacağını gözləyirik. Pakistanın da bu məsələdə mövqeyinin Şimali Kipr üçün böyük əhəmiyyət kəsb etdiyini qeyd etmək istəyirəm”.

**“Ölkələrimiz və bölgəmizə təhdidləri dəf etmədən inkişaf mümkün deyil”**

**TBMM rəhbəri qeyd edib ki, Türkiyə xalqlarımızın səadəti və kədərinin bir olduğunun fərqindədir:** ”Üç qardaş ölkənin parlament sədrləri olaraq ilk dəfə Bakıda üçtərəfli formatda görüş keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin komandanlığı ilə Zəfər qazanıb, bayraqlarımız yan-yana yer alıb. Şəhidlərə rəhmət diləyirəm. Ölkələrimiz və bölgəmizə təhdidləri dəf etmədən inkişaf mümkün deyil. Müdafiə, nəqliyyat, ticarət, enerji, təhsil sahəsində fəaliyyət üçlü əməkdaşlığın təməl daşları olduğunu düşünürük. Şuşa Bəyannaməsini bu yolda atılmış və bünövrə sayılacaq addım sayırıq. Bu gün Bakı Bəyannaməsini imzalayacağıq. Bakı Bəyannaməsində bəyan etdiyimiz məqsədləri həyata keçirmək üçün parlamentlərimizdə müvafiq strukturlar formalaşdıracağımıza inanıram”.

**“Azərbaycan xalqının qələbəsi Pakistanda da qeyd edilib”**

**Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər bildirib ki, Azərbaycan xalqının qələbəsi Pakistanda da qeyd edilib:** ”Bu ilin yanvarında İslamabadda üç ölkənin xarici işlər nazirlərinin ikinci görüşü keçirilib. Parlament sədrlərinin üçtərəfli formatının da uğurla fəaliyyət göstərəcəyinə əminəm”. Ə.Qeysər 44 günlük Vətən müharibəsində qazanılan qələbə münasibəti ilə Azərbaycan xalqını təbrik edib: ”Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının qələbəsi Pakistanda da qeyd edilib. Özüm üçün də xoşdur ki, Pakistan bayrağı Azərbaycan və Türkiyə bayrağı ilə birgə Azərbaycanda dalğalanıb. Mən bütün şəhidlərə rəhmət diləyirəm. Azərbaycan və Türkiyə prezidentlərinə təşəkkür edirəm ki, Camu və Kəşmir məsələsində Pakistana dəstək veriblər”.
“

**Vətən savaşından sonra üç ölkənin əməkdaşlığı güclənir”**

**Politoloq Əhəd Məmmədli “Şərq”ə bildirib ki, Azərbaycan, Türkiyə, Pakistan əməkdaşlığı, əlaqələri hər addımda yeni müstəviyə çıxmaqdadır.** Analitik bildirib ki, üç qardaş və dost ölkənin əməkdaşlığı 44 günlük Vətən savaşından sonra daha genişmiqyaslı hal alıb: ”Üç dövlət arasında Bakı Bəyannaməsinin imzalanması olduqca mühümdür. Münasibətlərimiz bu cür davam edərsə, yaxın gələcəkdə hərbi-siyasi müttəfiqliyin şahidi olacağıq. Azərbaycan-Türkiyə-Pakistan arasında güclü ittifaq formalaşacaq. Hər üç ölkədən birinə təhlükə yaranarsa, digər iki dövlət avtomatik olaraq məsuliyyəti öz üzərinə götürəcək. Hətta bununla bağlı konkret sazişin imzalanması da mümkündür. Üç ölkə arasında hərbi-siyasi müttəfiqliyimizin hər baxımdan rəsmiləşməsi lazımdır. Türkiyə dünyanın aparıcı ölkələrindəndir, NATO-da söz sahibidir. Pakistan isə nüvə silahına malik ölkədir. Bu iki dost ölkənin Azərbaycanla sıx əlaqədə olması rəsmi Bakının maraqlarına tam cavab verir. Yaxınlaşma daha sürətlənməli və hərbi-siyasi ittifaqla yekunlaşmalıdır”.

**İsmayıl Qocayev**

# Liderlərin səyləri məntiqi nəticəyə yaxınlaşır



## İki qardaş ölkənin hakim partiyaları arasında sıx əməkdaşlıq, təmasların artması zərurətdən irəli gəlir

Bakıda səfərdə olan Türkiyənin Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin birinci müavini Numan Kurtulmuş Türk şəhidliyi abidəsinin önündə çıxış edib. Kurtulmuş bildirib ki, iki ölkə arasında qardaşlıq əlaqələri əbədidir, sarsılmazdır. O bildirib ki, 44 günlük müharibə zamanı Türkiyə dövləti və xalqı birmənalı Azərbaycanın yanında idi:

”Dövlət başçısı İlham Əliyevin qətiyyətli duruşu və ordusunun gücü ilə Qarabağ azad olundu. Qarabağ Zəfəri təkcə erməni işğalına son qoymadı, həmçinin regionda yeni reallıqlar yaratdı. Bu Qələbə bizim üçün də qürur mənbəyidir. Bu Zəfərin miqyası qarşıdakı illərdə daha aydın görünəcək. İki ölkənin siyasi partiyaları arasında əlaqələrin inkişaf etdirilməsi zəruriliyi var”. Kurtulmuş əlavə edib ki, ortaq mədəniyyət dəyərlərinin necə inkişaf etdirilməsi baxımından Gəncədə konfrans keçiriləcək: ”Səfər çərçivəsində iki siyasi partiyanın əlaqələrinin inkişaf etdirilməsi istiqamətində ciddi görüşlərimiz olacaq”.

Baş nazirin müavini Əli Əhmədov da bildirib ki, bu gün Azərbaycan və Türkiyə dövlətləri tarixlərinin ən şərəfli dövrünü yaşayır: ”Türkiyə-Azərbaycan qardaşlığı ”Bir millət, iki dövlət” prinsipi əsasında qurulub. Həm Türkiyə, həm də Azərbaycan xalqları bu formul əsasında yaşayırlar. 44 günlük Vətən savaşında bütün dünya Türkiyənin Azərbaycana dəstəyinin şahidi oldu. Bu dəstək, eyni zamanda, Türkiyənin qüdrətinin daha bir təsdiqi idi. Dövlətlərimiz arasındakı əlaqələrə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın sıx dostluq münasibətləri böyük töhfə verir”.

Xatırladaq ki, Yeni Azərbaycan Partiyasının sədr müavini,Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov başda olmaqla hakim partiyanın nümayəndə heyəti Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının dəvəti ilə 1-3 iyun tarixlərində qardaş ölkədə səfərdə olub. Səfər zamanı YAP nümayəndə heyəti Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla və digər rəhbər şəxslərlə görüşlər keçiriblər. Eyni zamanda, hər iki partiya arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb. Ümumiyyətlə, keçirilən görüşlərdə iki qardaş ölkənin hakim siyasi partiyaları arasında əməkdaşlıq əlaqələrinin real vəziyyəti yüksək dəyərləndirilib, perspektivlər müzakirə olunub. Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əlaqələr və qarşılıqlı faydalı əməkdaşlıq parlamentlər səviyyəsində, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etdirilir. Həmçinin, münasibətlərin daha da sıxlaşdırılması, gələcəkdə birgə layihələrin, tədbirlərin keçirilməsi qərara alınıb.

**Millət vəkili, YAP-ın İdarə Heyətinin üzvü Cavid Osmanov ”Şərq”ə deyib ki, iki qardaş ölkənin hakim partiyaları arasında sıx əməkdaşlıq, təmasların artması zərurətdən irəli gəlir. Deputatın sözlərinə görə, son zamanlar Azərbaycan-Türkiyə münasibətləri özünün ən yüksək səviyyəsini yaşayır:** ”Türkiyənin hakim partiyası AK Partiyanın idarə heyətinin Yeni Azərbaycan Partiyasının dəvəti ilə Azərbaycana gəlməsi əlamətdar hadisədir. Şuşa Bəyannaməsi imzalandıqdan sonra Azərbaycan Türkiyə ilə müttəfiqlik sənədinə də imza atdı. Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək pilləyə çatması iki dövlətin lideri, Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın birgə səylərinin məntiqi nəticəsidir. Bunun arxasında böyük fəaliyyət dayanır. Bu baxımdan da Yeni Azərbaycan Partiyası ilə AK Partiyanın birgə fəaliyyəti zərurətdən irəli gəlir”.

Parlament üzvü vurğulayıb ki, bir müddət əvvəl Yeni Azərbaycan Partiyasının sədr müavini Tahir Budaqovun rəhbərliyi ilə nümayəndə heyəti, sədr müavini Türkiyəyə səfər edib və bir çox məsələlər haqqında müzakirələr aparılıb: ”Bu gün də qardaş ölkənin hakim partiyası AK Partiyanın Azərbaycana səfər etməsi və səfər çərçivəsində bir çox məsələlərin müzakirəsi Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələyə çox böyük töhfə verəcək. İki partiyanın bir-birinə inteqrasiyası Azərbaycan-Türkiyə qardaşlığını bir qədər də möhkəmləndirəcək. Azərbaycan və Türkiyə dünyada ikinci örnəyi olmayan qardaşlıq əlaqələrinə malikdir”.

**İsmayıl Qocayev**

# Artıq Rusiya Azərbaycanla hesablaşır

## Azərbaycan üçtərəfli razılaşmaların yerinə yetirilməsinə nail olmalıdır



**Paşinyanın Rusiyanın mövqeyini zəiflətmək istiqamətində atdığı addımlardan biri də üçtərəfli bəyanatlardan yayınaraq Avropa İttifaqı və Fransanın təhriki ilə yeni bir siyasi mərhələ başlatmaqdır. Bu prosesə ABŞ da dəstək verir”.**

Bunu Milli Cəbhə Partiyası sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə açıqlamasında deyib.

**Onun sözlərinə görə, Fransa ABŞ-da Türkiyənin regionda planlaşdırdığı ”Altılıq” platformanın qarşısını almaqdadır:** ”Məhz Ermənistan rəhbərliyi bununla Zəngəzur dəhlizinin açılmasından yayınmağa və Qarabağa status əldə etmək üçün danışıqlar prosesinə başlamağa çalışır. Rusiya da idarə olunan bir münaqişə yaratmaqla Azərbaycan-Ermənistan arasında sülhün əldə edilməməsi prosesində maraqlıdır. Amma Rusiya Fransa qoşunlarının Ermənistana göndərilməsində maraqlı deyil. Paşinyan Fransa ordusunun Ermənistanla Azərbaycan dövlətinə dəvət etməkdə əsas məqsədinin Azərbaycanla böhrana görə etdiyini qeyd etsə də, bu, Rusiyaya qarşı yönəlmiş bir addımdır. Bununla da məqsədi Rusiyanın hərbçilərini ölkəsindən çıxarmaqla Qərbin dayaqlarını Ermənistanda möhkəmlətməkdir. Ermənistan uğrunda Avropa İttifaqı və Fransa Rusiya ilə mübarizədə yeni mərhələyə keçib. Məhz bu proseslər davam etdikcə, Ermənistan üçtərəfli razılaşmalara getməyəcək. Fransa və Avropa İttifaqı Ermənistanın təklifləri ilə Azərbaycana təzyiq etmələri fonunda Qərbin hazırkı siyasəti uğurlu olmayacaq. Əgər Fransa və Avropa İttifaqı üçtərəfli razılaşmalara dəstək verəcəklərsə, Ermənistanın siyasəti uğurlu ola bilər. Hazırda isə buna gedilmir”.

**Politoloq qeyd edib ki, ümumi porses gərgin olaraq qalır:** ”Və Azərbaycan mütləq şəkildə Ermənistana ciddi təzyiqlər edib, üçtərəfli razılaşmaların yerinə yetirilməsinə nail olmalıdır. Bu siyasi gedişatda müəyyən qədər Rusiya da Azərbaycanla hesablaşır”.

**Aynurə**

# Ermənistan yekun sülh müqaviləsini şərtlə imzalayacaq

## Həşim Səhrablı: “Konfliktin beynəlxalq müstəvidə həllini tapacağı ağlabatan deyil”



**Azərbaycan XİN rəhbəri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan serbiyalı həmkarı Nikola Selakoviçlə görüşünün yekunlarına həsr olunmuş mətbuat konfransında çıxışı zamanı bildirib ki, hələlik Ermənistan tərəfinin sülhlə bağlı təkliflərimizə cavab tədbirlərini müşahidə etmirik.**

”Ermənistan tərəfindən torpaqlarımızın 30 ilə yaxın davam edən işğal faktı, Vətən müharibəsi nəticəsində işğala son qoyulması və beynəlxalq hüququn bərqərar olması barədə həmkarımı məlumatlandırdım. Həmçinin, sülhün əldə olunması, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, orada şəraitin yaradılması və yenidənqurma işləri barədə Azərbaycan tərəfindən atılan sistemli addımlar barədə də məlumat verdim.

Ermənistanla münasibətlərin normallaşma imkanları, iki ölkə arasında sülh müqaviləsi təklifi, sərhədlərin delimitasiyası istiqamətində Azərbaycan tərəfinin atdığı addımlar barədə də bildirdim”, - XİN rəhbəri qeyd edib.

Görünür, düşmən ölkədə Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan yekun sülh müqaviləsini imzalamağa hazır olduğunu deməklə sadəcə blef edir.

**“Şərq” olaraq yekun sülh müqaviləsi haqqında hərbi-siyasi ekspert Həşim Səhrablı ilə müzakirə apardıq:**

**- Yekun sülh müqaviləsinin imzalanması nə qədər realdır?**

- Bu, gec-tez mütləq olacaq. Əks halda regionda sabitlikdən söhbət gedə bilməz. Sadəcə, yekun sülh müqaviləsinin nə vaxt imzalanacağını demək çətindir.

**- Axı Paşinyan buna hazır olduğunu deyib...**

- Belə bəyanatlar əvvəllər də bir neçə dəfə səsləndirilib. Lakin diqqət edirsinizsə, Paşinyanın hər oxşar çıxışından sonra sərhəddə vəziyyət gərginləşir. Deməli, nə isə düzgün deyil...

**- Elə isə yekun sülh müqaviləsi hansı formada imzalanacaq?**

- Üç variant var. Birincisi, məsələnin beynəlxalq müstəvidə həllini tapmasıdır. İkincisi, münaqişə tərəflərinin, yəni Azərbaycanla Ermənistanın prosesi öz aralarında həll etməsidir. Üçüncüsü isə rəsmi Bakının güc tətbiq etməsidir. Söhbət sülhə məcburetmə əməliyyatlarından gedir.

**- Ən real variant hansıdır?**

- Konfliktin beynəlxalq müstəvidə həllini tapacağı ağlabatan deyil. Çünki hər bir regioanl gücün öz maraqları, istəkləri var. Türkiyə, Rusiya, İran, Qərb...- hər biri istəyəcək ki, şərtləri özü diktə etsin. Düzdür, Azərbaycan nəzəri olaraq anti-terror əməliyyatlarına başlaya bilər. Lakin regionda sülhməramlı qüvvələrin olduğunu nəzərə almaq lazımdır. Deməli, bizim belə bir addımımız beynəlxalq təzyiqə səbəb ola bilər. Yəni, fikrimcə, ən uyğunu məhz ikinci yoldur. Hərçənd bunun da öz problemləri var.

**- Nələr?**

- Ermənistan hələ də hərbçilərini Qarabağdan çıxarmayıb. Həmçinin havadarlarına arxayın olaraq hansısa statusdan danışır. Yəni İrəvan mütləq hansısa şərtlər irəli sürəcək. Deməli, ortaq mövqe tapmalı olacağıq.

**Kənan Novruzov**



# Türkiyəyə peşəkar diplomat göndərildi

## Rəşad Məmmədov Qazaxıstanda Azərbaycan üçün çox işlər görüb

Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə Rəşad Məmmədov Azərbaycanın Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Uzun müddət diplomatik fəaliyyətlə məşğul olan Rəşad Məmmədov 1973-cü ildə Gəncə şəhərində anadan olub. 1990-1995-ci illərdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb. 2002-2004-cü illərdə G.Plexanov adına Rusiya Dövlət İqtisad Akademiyasının magistraturasını bitirib. 2017-2020-ci illərdə Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin doktoranturasını bitirib.





### O, Türkiyə və Azərbaycan diplomatiyasında da yeni səhifə açacaq

O, əmək fəaliyyətinə 1990-1992-ci illərdə Ədliyyə Nazirliyinin Aparatında kargüzar kimi başlayıb. Bir müddət hərbi prokurorluq sahəsində çalışdıqdan sonra 2000-2001-ci illərdə Xarici İşlər Nazirliyinin MDB idarəsində attaşe, Azərbaycanın Rusiya səfirliyində ikinci katib, 2006-2008-cı illərdə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsində Konsulluq hüquq məsələləri şöbəsinin müdiri işləyib. Rəşad Məmmədov 2010-2015-ci illərdə Azərbaycanın Qazaxıstanın Aktau şəhərindəki baş konsulu, 2015-ci ildən bu təyinatadək Azərbaycanın Qazaxıstanda fövqəladə və səlahiyyətli səfiri olub.

**Qazaxıstanda səfir işləmiş Rəşad Məmmədovu kifayət qədər yaxşı tanıdığını bildirən araşdırmaçı-jurnalist Aida Eyvazlı Göytürk "Şərq"ə açıqlamasında diplomatın gördüyü önəmli işlərdən söz açıb.** Jurnalist səfirin fəaliyyətini yüksək dəyərləndirib: "2007-ci ildə, Azərbaycan Dövlət Televiziyasının Mərkəzi Asiya respublikaları üzrə xüsusi müxbir postunun rəhbəri olduğum zaman eşitdim ki, Qazaxıstanın Aktau şəhərində baş konsulluğumuz açılıb. Getdim, gördüm ki, baş konsul gənc və yaraşıqlı bir oğlandır. Amma şərait gənaətbəxş deyildi, düz-əməlli otaq, heç oturmağa stul belə yox idi. Rəşad müəllimi həmin gün tanıdım. Qısa zamanda dövlət orqanlarının rəhbərləri ilə yüksək münasibətlər qurmağa başladı. Hər baş konsul belə işləməyi bacarmazdı. Rəşad Məmmədov Aktauda baş konsulluq vəzifəsini elə yüksək səviyyədə icra etdi ki, Qazaxıstandakı səfirliyimizi belə geridə qoydu. Aktauda bir azərbaycanlının hüquqları pozulmuşdu. Rəşad Məmmədov vilayətin rəhbəri və polis rəisi ilə görüşüb demişdi ki, Azərbaycan vətəndaşına qarşı artıq-əskik hərəkət edənlər qarşılarında onu görəcək. Demişdi ki, o, Qazaxıstanda Azərbaycan dövlətini təmsil edir. Qanunsuz həbs olunan vətəndaşlarımızı da azad etdirmişdi. Hər şeydən öncə çox gözəl, möhtəşəm insandır. Həmçinin, siyasi-iqtisadi əlaqələr qurmağı bacaran peşəkar diplomatdır".

*A.Eyvazlı Göytürk bildirib ki, Rəşad Məmmədov DİN-in təsisatlarını Aktauya gətizdirərək Azərbaycan vətəndaşlarına rahat şəkildə və rüşvətsiz pasport almağına imkan yaratmışdı:* "Dövlətlərarası əlaqələrdə böyük layihələrə imza atmışdı. Dostluq qrupları yaratmışdı. Bütün bölgələri gəzirdi və bir nəfər də olsun Rəşad müəllimin diqqətindən kənarda qalmırdı. Dövlətlərarası münasibətləri, ölkələr arasındakı dostluq körpüsünü məhz səfirlər yaradır. Rəşad Məmmədov 2015-ci ildə Qazaxıstana səfir təyin olunandan sonra Azərbaycan-Qazaxıstan münasibətləri yüksək mərhələyə qədəm qoydu. Azərbaycan-Qazaxıstan münasibətlərinin möhkəmlənməsində, tarixi əlaqələrimizin dirçəlməsində müstəsna rolu, danılmaz xidmətləri olub. Bəzən iki dövlət rəhbərinin yaxın dostluq münasibətləri olur, amma səfirlik missiyasını yerinə yetirən şəxs həmin ölkədə elə mənfi iş görür ki, dostluq telləri pozulur".

**Araşdırmaçı-jurnalist vurğulayıb ki, Rəşad Məmmədov Qazaxıstanda Azərbaycan üçün çox işlər görüb:** "Azərbaycan haqqında çoxsaylı kitablar nəşr etdirib. Bir-birinə düşmən kəsilmiş diaspora təşkilatlarını dost etməyi bacardı. Bundan əlavə öz mükəmməl fəaliyyəti ilə başqa ölkələrin diasporalarını da Azərbaycana dost edib. Məlumdur ki, 44 günlük Vətən savaşının ilk günündə Qazaxıstanın sərgilədiyi mövqe bizi qane etmirdi. Ölkə mediasının qapıları üzümüzə bağlanmışdı, Azərbaycan həqiqətləri ilə bağlı heç nə dərc etməyə imkan vermirdilər. Rəşad müəllim bir həftə ərzində sözün həqiqi mənasında fırtına yaratdı. Nəticədə bütün Qazaxıstan xalqı Azərbaycan üçün ayağa qalxdı. Sosial şəbəkələrdə Azərbaycan nidaları yüksəldi, yanımızda olduqlarını bəyan etdilər. Ölkə vətəndaşları qəhrəman hərbçilərimizin, generallarımızın fotolarını öz profillərinə yerləşdirdilər. Səfirlik önünə toplaşaraq döyüşmək üçün Azərbaycana gəlmək niyyətində olduqlarını bildirdilər. Tanınmış media orqanlarının hamısı Azərbaycandan yazmağa başladı. Qazaxıstandan jurnalistlər, blogerlər, yazıçılar, şairlər Azərbaycana qonaq gəlib, Zəfərimizi gözləri ilə gördülər. Elə noyabr ayında Bərdəyə, Gəncəyə, Tərtərə səfər etdilər. Zəfərimizdən iki film çəkdilər. Bütün bunların reallaşmasının səbəbkarı Rəşad Məmmədov idi. O, fövqəladənin fövqündə dayanan bir diplomatdır. Qazaxıstandan ayrılmağa bir neçə gün qalmış həmin ölkənin prezidenti tərəfindən "Dostluq Ordeni" ilə təltif olundu. Bax, budur əsl dostluğun təntənəsi. Rəşad Məmmədov Azərbaycanı çox gözəl təmsil edib. İnanıram ki, Türkiyədə də daha yeni, daha gözəl münasibətlərin yaranmasına nail olacaq. Hamı Rəşad müəllimin nəyə qadir olduğunu görəcək. Türkiyə və Azərbaycan diplomatiyasında yeni səhifə açılacaq və hamı bunun şahidi olacaq".

**İsmayıl Qocayev**



# Bakı Bəyannaməsi "yol xəritəsi" olacaq

## Sözügedən sənəd Şuşa Bəyannaməsi qədər əhəmiyyətlidir

**Dünən Türkiyə, Azərbaycan və Pakistan parlamentlərinin sədrləri Mustafa Şentop, Sahibə Qafarova, Əsəd Qayseri arasında birinci üçtərəfli toplantı keçirilib.**

Toplantının yekun sənədi olaraq Bakı Bəyannaməsi imzalanıb. Sabah Türkiyə Böyük Millət Məclisinin sədri Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla görüşəcək. Mustafa Şentop səfər çərçivəsində Füzuli və Şuşa şəhərlərinə səfər edəcək.

**Millət vəkili Məlahət İbrahimqızı üçtərəfli əlaqələr barədə "Şərq"ə danışıb:**

"Bizim tərəfdaşlığımızın tarixi kökləri var. Xüsusilə ikinci dəfə müstəqillik əldə etdikdən sonra əlaqələrimiz bir az da dərinləşdi. Torpaqlarımızın işğal altında olduğu otuz il ərzində Pakistan eyni ilə Türkiyə kimi açıq mövqe sərgilədi, konkret bəyanatlar verdi. Pakistan indiyədək Ermənistanın müstəqilliyini tanımır. Bundan sonrakı münasibətlər İrəvanın Azərbaycan və Türkiyəyə qarşı ritorikasından asılı olacaq".

**M.İbrahimqızı, həmçinin Bakı Bəyannaməsinin əhəmiyyətindən söz açıb:** "Bu sənəddə bizim strateji müttəfiqliyimiz, dostluğumuz öz əksini tapacaq. Eyni zamanda Bakı Bəyannaməsi gələcək əməkdaşlığımızın "yol xəritəsi" olacaq, qardaşlığımızı sarsılmaz və davamlı edəcək. Bu mənada sözügedən sənəd Şuşa Bəyannaməsi qədər əhəmiyyətlidir".

**Kənan**

# Moskva yekun sülh müqaviləsinin imzalanmasını istəmir

## Əhəd Məmmədli: "...Azərbaycanla müqavilənin imzalanması Rusiyanın "oyundankənar vəziyyət"ə düşməsi deməkdir"

**Ermənistanla münasibətlərdə maraqlı proseslər baş verir. Sərhəddə gərginlik var. Düşmənin təxribatları səngimir.**

Digər tərəfdən isə baş nazir vəzifəsini icra edən Nikol Paşinyan yekun sülh müqaviləsinə hazır olduğunu deyib. Hər halda erməni fitnəsi qarşısında səbr kasamız dolmaqdadır. Və bundan ziyan görən, şübhəsiz ki, rəsmi İrəvan olacaq.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli baş verənləri "Şərq"ə şərh edib:** "Bir neçə ehtimal var. Ola bilsin ki, təxribatlar Paşinyanın yox, Rusiyanın nəzarətində olan qüvvələrin rəhbərliyi ilə həyata keçirilib. İkinci variant isə budur: Paşinyan Azərbaycanı əks addım atmağa sövq edir.

Çünki o, yekun sülh müqaviləsinin imzalanmasında maraqlı olsa da, erməni cəmiyyəti bunun əleyhinədir. Beləliklə, Baş nazir vəzifəsini icra edən siyasətçi yeni ərazilər itirdikdən sonra cəmiyyəti fakt qarşısında qoyacaq, müqavilədən başqa yolunun olmadığını göstərməyə çalışacaq.

Onu da nəzərə almaq lazımdır ki, Paşinyan Qərbin hakimiyyətə gətirdiyi fiqurdur. Azərbaycanla müqavilənin imzalanması Rusiyanın "oyundankənar vəziyyət"ə düşməsi deməkdir. Çünki Cənubi Qafqazda təsir gücü azalacaq, sülhməramlılara ehtiyac qalmayacaq. Elə buna görə Moskva yekun sülh müqaviləsinin imzalanmasını istəmir".

**Kənan**

# Könüllü olmasa, məcburi olacaq

## Zəngəzur dəhlizi mütləq açılacaq

Azərbaycanın 44 günlük müharibədə qazandığı zəfərdən, Ermənistanın uğradığı acı məğlubiyyətdən, imzaladığı kapitulyasiya aktından sonra bu ölkənin nəticə çıxarması gözlənilirdi. Ancaq Ermənistan tərəfinin yersiz bəyanatları, təxribat mahiyyəti daşıyan addımları onu göstərir ki, bu ölkə hələ nəticə çıxarmayıb. Ekspertlərin fikrincə, Ermənistanın İkinci Qarabağ müharibəsinin acı nəticələrini unutması düşmənə baha başa gələr.



**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, ermənilər 30 il ərzində özləri haqqında olmazın yalanlarını uydururdular.** Dünyaya qəbul etdirməyə çalışdılar ki, guya, onların "müzəffər", "yenilməz ordusu" var, erməni xalqı "döyüşkəndir", erməni ordusu ən "güclü ordu"dur və s. Deputatın sözlərinə görə, Azərbaycan Ordusu 44 günlük müharibə dövründə bu "yenilməz ordunu" darmadağın etdi: "Göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır, onların bütün təbliğatı mifdir, mifologiyadır. Azərbaycan xalqı göstərdi ki, Birinci Qarabağ müharibəsində ermənilər xarici dəstək hesabına üstünlük qazanmışdılar. Tarixdən yaxşı məlumdur ki, Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü il iyulun 7-də süni qurum kimi yaradılmışdı. O vaxt sovet hökumətində təmsil olunan ermənilər bu qanunsuz və heç bir əsası olmayan qərarı qəbul etdilər və Sovet Azərbaycanı o vaxt məcbur olub bununla razılaşdı. Amma bu, tamamilə əsassız və süni şəkildə yaradılmış bir qurum idi. Azərbaycan parlamenti müstəqillik bərpa olunandan bir ay sonra - 1991-ci ilin noyabrında Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etdi. Bu, birmənalı olaraq süni şəkildə Azərbaycanın içində daim bir münaqişə ocağı yaratmaq üçün sovet hökuməti tərəfindən ortalığa atılmış təxribatdır. Bizim tarixi torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayətini yaratmaq, bir kəndi - Xankəndini, hansı ki, kənd idi, onu oranın mərkəzi etmək və cəllad Şaumyanın adını vermək Azərbaycan xalqına qarşı xəyanət və təhqir idi. Tarix zamanla hər şeyi öz yerinə qoyur.

Status məsələsinə gəldikdə, bu gün qondarma rejimin nəzarətində olan bölgələrdə 25 min adam yaşayır. Orada gedən proseslərlə bağlı Azərbaycanın kifayət qədər məlumatı var. Bu gün müxtəlif rəqəmlər səsləndirilir. Guya müharibədən sonra o ərazilərə 50 mindən çox adam qayıdıb. Ola bilər, ancaq qayıdan o demək deyil ki, orada qalır. Qayıdıb, sonra çıxıb gedib, geri dönüb".

**C.Məmmədov vurğulayıb ki, Azərbaycanın müxtəlif texniki vasitələri, peyki var:** "Oradakı maşınların sayı, insanların hərəkəti Azərbaycanın dövlət qurumları tərəfindən diqqətlə izlənilir. Azərbaycan dəqiq bilir ki, orada maksimum 25 min adam yaşayır. Heç şübhəsiz ki, 25 min insan üçün status yaratmaq heç bir məntiqə sığmır. Zəngəzur məsələsinə gəldikdə Azərbaycan hesab edirik ki, ora Azərbaycanın tarixi əraziləridir. Zəngəzur bizim dədə-baba torpağımızdır və Azərbaycan xalqı öz tarixi ərazisindədir. Zəngəzur dəhlizi mütləq açılmalıdır. Ermənistan bunu nə qədər tez dərk etsə, onlar üçün o qədər də yaxşıdır. Ermənistan ya könüllü olaraq buna getməlidir, ya da məcbur ediləcək".

**İsmayıl Qocayev**

## Kadr islahatları doğru addımdır

### "Keçmiş XİN-in "törtöküntüləri" "təmizlənir"



**Prezident İlham Əliyev bir çox ölkələrdəki səfirlərimizin dəyişilməsi ilə bağlı sərəncam imzalayıb. Belə ki, bundan sonra Rəşad Məmmədov Azərbaycanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışacaq.**

Anar Məhərrəmov ölkəmizi Estoniyada təmsil edəcək. Həmçinin Fuad İsgəndərov İsveçrədə, Xəzər İbrahim ABŞ-da, Elin Süleymanov Böyük Britaniyada bu vəzifəni icra edəcəklər.

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında islahatları belə qiymətləndirib:**

"Kadrlar, xüsusilə diplomatlar daim bir yerdə qalanda dinamiklik azalır, inkişaf olmur. Onlar üçün fərqli mühit yaradılmalıdır. İndi vəzifələri dəyişən kadrlar üçün yeni mərhələ başlayır. Bu, onların özünə də yaxşıdır. Bəzilərinin geri çağırılandan sonra yeni vəzifəyə təyin olunmamaları da təbiidir. Çünki diplomatik korpusumuzda keçmiş XİN-in "tör-töküntüləri" var. Onlar Azərbaycanın diplomatik siyasətinə uyğun davrana bilmirlər".

N.Mirinin fikrincə, proses davam etməlidir:

"Hücum xarakterli xarici siyasəti təmin etməyimizdən ötrü yenilənmələrə ehtiyac var. Kadr islahatları doğru addımdır. Amma yetərli deyil. "Təmizləmələr" davam etməlidir. XİN-in Mərkəzi Aparatından tutmuş digər ölkələrdəki diplomatik korpuslaradək. Bizim savadlı, ixtisaslı gənclərimiz kifayət qədərdir. Onlardan yararlanmaq lazımdır. Hər halda bundan əminəm: islahatlar köklü yox, pərakəndə olduğu müddətcə mahiyyət etibarı ilə hansısa dəyişikliyə nail olmaq mümkün deyil".

**Kənan**

# "Valday"dan başlanan uğur...

## Bölgədə beynəlxalq hüququn bərqərar olunmasını təmin etmişik



**Azərbaycanın hərbi müstəvidə əldə etdiyi qələbə, şübhəsiz, çox ciddi diplomatik gedişlərə əsaslanır. Belə ki, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev uzun illər Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə bağlı beynəlxalq aləmdə çıxışlar edib, haqq səsimizi yüksəldib.**

2019-cu ildə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası, həmin il təşkil olunan MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən zirvə görüşü, Münhen Təhlükəsizlik Konfransı (2020) və digər beynəlxalq tədbirlər məhz bu baxımdan səciyyəvidir.

Həmin konfranslarda Prezidentin çıxışlarının hər biri böyük qələbə istiqamətində atılan bir addım idi.

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə bu barədə "Şərq"ə danışıb. Onun fikrincə, hazırkı nailiyyətlər vaxtı ilə atılan addımların nəticəsidir:**

"Azərbaycanın bugünkü təhlükəsizlik sistemi, regionda sabitliyin formalaşması istiqamətində əldə edilən nəticələr və digə nailiyyətlər uğurlu xarici siyasətimizin nəticəsidir. Biz ayrı-ayrı dövlətlərlə əməkdaşlıq nəticəsində mühüm layihələrə imza atmışıq.

Bütün beynəlxalq platformalarda tərəfdaşlığı əsas prinsip kimi göstərmiş, bölgədə beynəlxalq hüququn bərqərar olunmasını təmin etmişik.

Qoşulmama Hərəkatına sədrlik dövründə imkansız ölkələrə dəstəyimiz və beynəlxalq hüquq normalarına sadiqliyimiz nəticəsində dünya ictimaiyyəti arasında nüfuzumuz artıb".

**Kənan**

**Bu günlərdə Fransa Milli Assambleyasının bir qrup deputatı Azərbaycana səfər edib, işğaldan azad edilmiş ərazilərə yollanıb. Fransalı qonaqları Azərbaycan Milli Məclisinin deputatları, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Soltan Məmmədov müşayiət edib.**

Fransalı parlamentarilər azad edilmiş ərazilərdə dağıdılmış və təhqir edilmiş dini abidələr və məscidlərə də baş çəkib, ermənilərin qeyri-insani davranışları qarşısında dərin sarsıntı və təəssüflərini ifadə ediblər. Bununla yanaşı Azərbaycan ərazisində dövlətin qoruduğu xristian kilsələri və yəhudi sinaqoqları ilə də tanış olublar. Onlar Azərbaycan dövlətinin, xüsusilə də Heydər Əliyev Fondunun dini tolerantlıq və multukulturalizmə böyük önəm verdiyini xüsusi məmnunluq hissi ilə vurğulayıblar. Məlumdur ki, hər zaman Fransa ölkəmizə qarşı qara yaxma kampaniyasında iştirak edib. Maraqlıdır ki, Fransa ilə Azərbaycan münasibətlərinin gələcəkdə normallaşması ehtimalı varmı?



# Ən böyük əngəl erməni lobbisidir

## Turab Rzayev: "Gələcəkdə əlbəttə ki, Fransa və Azərbaycan münasibətləri normallaşacaq"

**Sualımızı cavablandıran politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, gələcəkdə əlbəttə ki, Fransa və Azərbaycan münasibətləri normallaşacaq. O qeyd edib ki, sadəcə olaraq burada erməni lobbisi faktoru var:** "Fransa Ermənistanı Qafqazda öz müttəfiqi olaraq görür. Bundan başqa Fransanın özündə də erməni lobbisi faktoru mövcuddur. Hansı ki, onların həm maliyyə, həm də seçkilərdə səs cəhətdən Fransada rəhbər tutan şəxslərə müdaxilə etmək imkanları var. Hətta onlar Fransada siyasi karyera uman şəxslərə belə təzyiq edə bilirlər. Ona görə də, hesab edirəm ki, həmişə arada erməni faktoru qalacaq. Amma ümumi şəkildə Azərbaycan-Fransa münasibətləri müharibədən əvvəl normal səviyyədə olub. Qeyd edim ki, biz hətta Fransa ilə hərbi-texnoloji sahədə alış-veriş edirik. Bundan başqa demək olar ki, iqtisadi, təhsil sahəsində birgə fəaliyyət mövcuddur. Düşünürəm ki, yaxın gələcəkdə iki dövlət arasında münasibətlər düzələcək. Amma bir şərtlə ki, Fransa konkret mövqe ortaya qoymalıdır. O, Dağlıq Qarabağ ərazisini, həmçinin Şuşa və Hadrut da daxil olmaqla, onların Azərbaycanın əraziləri olduğunu tanımalıdır. Bizim əsas istəyimiz odur ki, Fransa qeyd-şərtsiz olaraq Azərbaycan ərazisini tanıdığını elan etsin".

**Aynurə Pənahqızı**



# “Ermənistanın hərbi təhrikləri Rusiyanı pis vəziyyətdə qoyur"

## Mevlüt Yüksel: “Təxribatlar Fransa kimi Avropa ölkələrinin “oyuna” daxil olmasına hesablanıb”

**Məlum olduğu kimi, sərhəddə vəziyyət yenidən gərginləşib. Şəhidimiz də var. Ermənistanda Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan sülh müqaviləsini imzalamağa hazır olduğunu desə də, davranışları bunu təsdiqləmir. Belə demək mümkünsə, ”saman altından su yeritməyə” çalışır. Proseslərin gələcək inkişafı isə çoxlarını düşündürür.**

*“Şərq” olaraq türkiyəli jurnalist Mevlüt Yüksellə son prosesləri müzakirə etdik:*

- Azərbaycan neft ölkəsi olmaqla yanaşı, həm də dənizə çıxışı və tükənməz geosiyasi üstünlükləri olan bir ölkədir. Həmçinin bura Qərbin Şərqə doğru yeganə dəhlizidir. Bu, Azərbaycanın Qərbin dəstəyini almasından ötrü çox mühüm məqamdır. Üç xristian ölkəsi ilə əhatə olunan Azərbaycan türk dünyasının açarıdır. Ermənistan da son vaxtlar bunun fərqindədir. Qorxularından və siyasilərin açıqlamalarından belə məlum olur ki, Zəngəzur məsələsi artıq onları narahat edir. Atəşkəsin pozulması bəzən guya mesaj məqsədlidir. Bəzən isə bunu pozulmuş psixologiyalarını belə demək mümkünsə, pərdələmək üçün edirlər. İrəvan məğlubiyyətin ardınca Rusiyanın ona verdiyi inamla bir çox provokasiyalara əl atır.

**- Bəs Moskvanın maraqları nədir?**

- Şimal qonşunuz beləliklə hər iki tərəfi nəzarətdə saxlamağa və siyasi səhnəyə özü dizayn verməyə çalışır. Dediyim kimi, Ermənistan vaxtı ilə tanıdığı Azərbaycan sərhədlərini pozmaq cürətini məhz Kremldən alır. Onu da deyim ki, təxribatlar daxili ictimai şüura, müxalifətə qarşı mübarizəyə də hesablana bilər. İrəvan üçtərəfli razılığı sıradan çıxararaq yeni bir müqavilə imzalanmasında maraqlıdır.

**- Bilirsiniz ki, sərhəddə vəziyyət gərgindir. Yeni müharibə ehtimalını necə qiymətləndirirsiniz?**

- Bu, ağlabatan deyil. Lokal hərbi əməliyyat mümkündür. Lakin Azərbaycan ordusunun üstünlüyü, Türkiyənin hər an gözdə-qulaqda olması savaş ehtimalını minimuma salır. Paşinyan iqtidarı yeni müharibə istəyərsə, Rusiyanın əlinə Ermənistanı tamamilə Qərbdən qoparmaqdan ötrü şans vermiş olar. İkinci bir tərəfdən, Ermənistanın iqtisadiyyatı çox pis vəziyyətdədir. Müharibə düşmən üçün sosial fəlakət olar. Bu isə Ermənistanı Avropadan daha asılı vəziyyətə salacaq. Həmçinin müharibə başlasa və Azərbaycan yeni torpaqları azad etsə, Paşinyan hakimiyyətinə ciddi risk yaranacaq. Əslində Ermənistan hərbi təhrikləri Rusiyanı pis vəziyyətdə qoyur. Fikrimcə, bu, Fransa kimi Avropa ölkələrinin ”oyuna” daxil olmasına hesablanıb. Moskva vəzifəsini yerinə yetirə bilmədiyinə görə Ankara və Bakı onun vasitəçiliyinə etiraz edə bilər. Və bu zaman regiona Rusiyadan qat-qat uzaq Parisin vasitəçi olması bizim maraqlarımıza daha uyğundur.



> **“Moskva vəzifəsini yerinə yetirə bilmədiyinə görə Ankara və Bakı onun vasitəçiliyinə etiraz edə bilər”**

**- İlham Əliyevlə rusiyalı həmkarının Moskvadakı görüşü nələr vəd edir?**

- Fikrimcə, görüşdə ”mülayimləşmə” və Azərbaycanın müşahidəçi qismində KTMT-yə üzv olması barədə müzakirələr gedib. Görüşün regiondakı duruma iyun ayında Bakı ilə Ankara arasında imzalanan Şuşa bəyannaməsi qədər çox təsir edə biləcəyinə inanmıram.

**- ”İsgəndər-M” raketi ilə bağlı müəmma hələ də həllini tapmayıb**

- Rusiya elə etməlidir ki, biz ona inanaq. Və əmin olaq ki, Ermənistana satılan silahlar Azərbaycanla Türkiyəyə qarşı istifadə olunmayacaq. Əslində hələ illər əvvəl havadan müdafiə sistemlərini inkişaf etdirməklə problemi aradan qaldıra bilərdik. Çünki Rusiyanın daim silah gücü ilə təhlükəli bir dövlətə çevrildiyini bilirik. Hazırkı reallıq isə budur: Azərbaycan və Türkiyə Cənubi Qafqazı və bütün türk dünyasını çiyinlərində tam fərqli gələcəyə aparır. Odur ki, tarixi günlər yaşayırıq.

**- Hələlik cəmi üç rayonun minalı ərazilərin xəritəsini almışıq. Bəs problem tamamilə necə həll olunmalıdır?**

- Müharibənin üzərindən bir ilə yaxın vaxt keçməsinə rəğmən, hələ də məhz o minalara görə şəhidlər verməkdəyik. Fikrimcə, erməni terrorçuları qarşılığında minalı ərazilərin xəritəsini tələb etmək olar. Düşmənə indi döyüşçü hava-su qədər lazımdır. Odur ki, terrorçular qarşılığında hətta İrəvanı da boşalda bilərlər.

**- Belə vəziyyətlərdə media necə davranmalıdır? Dezinformasiyaların qarşısı necə alınmalıdır?**

- Müharibə vaxtı media tərəfsiz və milli maraqlara uyğun şəkildə hüquqi işini davam etdirməlidir. Dezinformasiya və saxta xəbərlər psixoloji hücum üsuludur. Xatırlayırsınızsa, İsrail hələ yarım əsr əvvəl Ərəb ölkələrini çaşdırmaq üçün saatlar sonra hücuma keçəcəyini elan etmişdi. Xəbərlər sensasiya yaratdı və müharibə qəzet səhifələrindəki manşetlərlə başlandı. Həqiqət budur ki, media bəzən savaşların taleyini dəyişdirə biləcək gücdədir.

**- Bəs prioritet peşəkarlıq, yoxsa vətəndaşlıq olmalıdır?**

- Mümkün qədər həm jurnalistika prinsiplərini, tələblərini, həm də vətəndaşlığı nəzərə almaq lazımdır. Jurnalistika müstəqil sahə olsa da, bəzən ”Dövlət sirri”, ”Hərbi sirr” kimi anlayışları nəzərə almaq lazım gəlir. Media dövlət siyasətinin bir qolu olmasına rəğmən, ordunu da unutmaq olmaz. Deməli, bəzən risk yaratmamaq naminə itkiləri gizlətmək, gec açıqlamaq məqsədəuyğundur. Bu, yalan danışmaqdan daha yaxşıdır.

**- Müsahibəmizin sonunda nə demək istərdiniz?**

- Yeni dünya nizamına doğru gedirik. Hər şey bəşəriyyət və türk dünyası üçün xeyirli olsun. Xankəndidən xəbərlər vermək arzusu ilə.

**Kənan Novruzov**



# Detallar aydınlaşır

## Quru Qoşunlarının funksiyasında dəyişikliklər gözlənilir

**”Azərbaycanda Quru Qoşunları komandanı vəzifəsi ilk dəfə yaradıldı və bu vəzifəyə general-mayor Ənvər Əfəndiyev təyin edildi”.**

**Bunu siyasi şərhçi, jurnalist Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Prezident İlham Əliyev açıqlamalarında Azərbaycan Ordusunun Türkiyə modelinə keçəcəyini bəyan etmişdi. İndi düşünmək olar ki, Quru Qoşunlarının funksiyasında da dəyişikliklər olacaq:** ”Detallı araşdırmaqla və müqayisəli təhlillərlə Quru Qoşunlarının perspektivdə necə olacağını demək olar. Ümumi şəkildə bildirək ki, Quru Qoşunlarının funksiyasında dəyişikliklər gözlənilir. Niyə bu fikri səsləndiririk?

İyunun 21-də Müdafiə naziri Zakir Həsənov Pakistan Quru Qoşunlarının komandanı, ordu generalı Qamar Caved Bacvanla görüşüb. İyunun 22-də isə Zakir Həsənov NATO-nun Quru Qoşunları Komandanlığının Qərargah rəisi diviziya generalı Metin Tokelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Diqqət çəkən məqam odur ki, NATO Quru Qoşunlarının Komandanlığının qərargahı İzmirdə yerləşir. İndi məlum olur ki, bir ay öncə keçirilən bu iki görüş Azərbaycanda Quru Qoşunları komandanının təyinatı və bu qoşun növünün gələcək missiyası barədə detalların dəqiqləşdirilməsi baxımından önəm daşıyırdı”.

**İsmayıl**

# ANAMA-nın minaya düşən əməkdaşı evə buraxılıb



**İyulun 27-də ANAMA-nın əməkdaşı, 26 avqust 1979-cu il təvəllüdlü Nəsirov Bəhruz Tapdıq oğlu işğaldan azad edilmiş Cəbrayıl rayonu ərazisində xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə minanı zərərsizləşdirən zaman dirəyin altında quraşdırılan digər bir minanın partlayışı baş verib.**

Bu barədə APA-ya Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətindən bildirilib.

Qeyd olunub ki, nəticədə, Nəsirov Bəhruz Tapdıq oğlu partlayış zamanı üzərində olan xüsusi qoruyucu geyim və dəbilqə sayəsində müxtəlif dərəcəli yüngül bədən xəsarətləri alıb, ilkin tibbi müayinə edilərək, evə buraxılıb.

”İşğaldan azad edilmiş ərazilərin mina və partlayıcı qurğularla yüksək səviyyədə çirklənməsini nəzərə alaraq təhlükəsizlik səbəbindən bir daha vətəndaşlarımızı həmin ərazilərə xüsusi icazə olmadan daxil olmamağa çağırırıq”, - deyə ANAMA-dan bildirilib.

# Koronavirusa yoluxanların sayı artdı

## 123 nəfər müalicə olunaraq sağalıb, 2 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 468 yeni yoluxma faktı qeydə alınıb, 123 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanındaOperativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 341 183 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 332 259 nəfər müalicə olunaraq sağalıb, 5 011 nəfər vəfat edib, aktiv xəstə sayı 3 913 nəfərdir.

# Saatlar Kreml vaxtı ilə işləyir

## Hakimiyyətdən erkən sala bilərlər



## Paşinyan - Putin qarşıdurması gözlənilir

**Ermənistanın "Hraparak" qəzeti yazıb ki, Nikol Paşinyan yeni hökumət formalaşdırmaq yolunda Rusiyaya meyilli şəxsləri vəzifədən uzaqlaşdıraraq onların yerinə qərb mərkəzləri tərəfindən idarə olunanları təyin edir.**

Həmçinin, Qərb ölkələrinin xüsusi xidmət orqanları ilə əlaqəli şəxslər də təyinat alanlar arasındadır. Erməni tərəfinin bu addımları rusların və Rusiya meyilli dairələrin, həmçinin rusiyalı sülhməramlıların diqqətindən yayınmır və etirazlarına səbəb olur. Zəngəzur bölgəsində yerləşdirilmiş Rusiya hərbçiləri yerli əhali ilə münasibət qurarkən öz narazılıqlarını gizlətmir və açıq şəkildə İrəvan hökumətini suçlayırlar. Onlar "Ermənistan və Azərbaycan sərhədində gərginlik məsələsində Ermənistan hakimiyyəti günahkardır" deyirlər. Erməni tərəfi isə "Rusiya öz öhdəliyini yerinə yetirə bilmir" təəssüratı yaratmaq üçün əlindən gələni edir. Rusların fikrincə, Ermənistan bunu yalnız bir məqsədlə, yəni qərbin qoşunlarını prosesə cəlb etmək üçün edir.

**Politoloq Azər Qasımov "Şərq"ə vurğulayıb ki, Paşinyanı hakimiyyətə gətirən Qərbin onun planlarına uyğun hərəkət edəcəyi heç kimdə şübhə doğurmur.** Analitikə görə, Paşinyanın Rusiyanı ölkədən çıxarmaq üçün ortaya atdığı əsas arqument "Moskvanın Ermənistanın təhlükəsizliyini təmin edə bilməməsi" reallığını cəmiyyətə göstərməkdir: "Paşinyanın istər müharibə, istərsə də sonrakı dövrlərdə tez-tez Moskvaya zəng etməsi buna hesablanmışdı. Onun Kremllə qarşıdurması mümkündür. Elə hakimiyyətə də sırf bu məqsədlə gətirilib. Son günlər regionda qarşıdurmanın gərginləşməsi və Paşinyanın 10 noyabr müqaviləsindən imtina etmək istəməsi bunu sübut edir. Məsələnin mahiyyətinə sadə yanaşsaq, Paşinyanın planları uğurlu ola bilər. Paşinyan fərqindədir ki, Qərbin oyunlarının sonunda regionda Rusiya və Azərbaycanla təkbətək qalacaq. Çünki Qərb İrəvana Gürcüstan və Ukraynaya verdiyi "dəstək"dən artığını verməyəcək. Nəticədə Ermənistanın da ərazisi digər "dəstək" alan ölkələrin vəziyyətinə düşəcək".

**İsmayıl Qocayev**

## Dərslər sentyabrın 1-dən başlayacaq

### Şagird və tələbələr mövzuları təkrarlaya biləcəklər

**Sentyabrın 1-dən etibarən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan yaşı 18-dən yuxarı şəxslərdən vaksinasiya olunmalarına dair COVİD-19 pasportunun tələb ediləcəyi xəbəri 2021-2022 tədris ilinin başlanma vaxtı bağlı sual yaradıb.**

*Dərslər bu il sentyabrın 1-dən başlayacaqmı?* Əslində, baş nazirin qərarı ilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 sentyabr tarixinədək uzadılıb. İndi isə Nazirlər Kabineti sentyabrın 1-dən etibarən tələbələrdən COVİD-19 pasportunun tələb olunacağına dair qərar verir. Bu qərar tədris ilinin sentyabrın 1-dən başlanacağı anlamına gəlirmi?

*Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında tədris ilinin sentyabrın 1-dən başlanacağının mümkün göründüyünü dedi:*

- Bizdə olan məlumata görə, böyük ehtimalla tədris ili sentyabrın 1-dən başlanacaq. Dəyişikliyin səbəbi pandemiya dövründə tətbiq edilən onlayn təhsil zamanı tədris proqramının lazımı qaydada keçilməsində problemlərin yaranmasıdır. Belə hesab edilir ki, dərslər 14 gün tez başlayarsa, ötən tədris ilində keçilməmiş dərslər keçilər, şagird və tələbələr mövzuları təkrarlayarlar. Bu da tədrisin keyfiyyətinə müsbət təsir edər. Bütün hallarda Təhsil Nazirliyinin də qərarını gözləməli olacağıq.

**Məlahət**

## Bakıda axtarışda olan şəxs özünü qumbara ilə partladıb

### Hadisə zamanı onu zərərsizləşdirmək istəyən 4 polis əməkdaşı xəsarət alıb

**Azərbaycanda axtarışda olan şəxs özünü qumbara ilə partladıb.**

Bu barədə "Report"a hüquq-mühafizə orqanlarından məlumat verilib.

Bildirilib ki, Səbail rayonu, "Maşın bazarı" adlanan ərazidə axtarışda olan şəxs özünü qumbara ilə partladıb.

Hadisə zamanı onu zərərsizləşdirmək istəyən 4 polis əməkdaşı xəsarət alıb.

# Gələcəkdə manat dəyərdən düşəcək

**Azərbaycan manatının digər valyutalar qarşısındakı mövqeyi yenidən zəifləyib. İyunda manatın real effektiv məzənnəsi xarici valyutalar qarşısında 101.4 bəndə düşüb.**

May ayında isə manatın REM-i 102.4 bənd təşkil edirdi. Bildirək ki, son bir ildə manatın ümumi olaraq real effektiv məzənnəsi son 11 ayın maksimum nəticəsini göstərməklə aprel ayında 104.0 bəndə yüksəlmişdi. Qeyri-neft sektoru üzrə manatın REM-i 98.1 bənd təşkil edib. Bu isə son bir ay ərzində 1.1 bənd zəifləməsi deməkdir. Maraqlıdır, il sonunadək Azərbaycan manatı dəyərini xarici valyutalar qarşısında qoruya biləcəkmi?

## Uzun müddət məzənnəni sabit saxlamaq mümkün deyil





**Sualımızı cavablandıran iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında qeyd edib ki, gələcəkdə manatın məzənnəsinin dəyişməsi qaçılmazdır:** "Azərbaycanda Mərkəzi Bankın manat siyasəti ona hesablanıb ki, dollar və manat məzənnəsi ənənəvi olaraq sabit qalır. Artıq dörd ildir ki, biz bu rejimdə fəaliyyət göstəririk. Amma dolların digər valyutalara olan nisbətdə ucuzlaşması və yaxud da bahalaşması çarpaz məzənnə rejiminə uyğundur. Manatın digər valyuta növlərinə məzənnəsi də çarpaz məzənnə ilədir. Digər valyutaların dollara nisbətən dəyişməsi Azərbaycan manatının həmin valyutaların məzənnəsində öz əksini tapır. Qeyd edim ki, son zamanlar dolların səviyyəsinin yüksəlməsi digər valyutaların dəyişməsinə səbəb olub. Yəni digər valyutalara nisbətən dollar daha da güclənib. Son bir-iki ayda biz bunun dünyada güclənməsini müşahidə edirik. Bunun nəticəsidir ki, Azərbaycan manatı digər valyutaların məzənnəsində aşağı düşüb, yəni ucuzlaşma müşahidə olunub. Məsələn, avro bir neçə ay bundan öncə 2 manat 10 qəpiyə yaxın idi, indi 2 manat civarındadır. Ümumiyyətlə, Azərbaycanda manatın məzənnəsinin hansı formada dəyişəcəyi Mərkəzi Bankın inzibati tənzimləmə siyasətindən asılıdır. Azərbaycanda bilirsiniz ki, üzən məzənnə rejimi yoxdur. Ona görə də məzənnə dəyişikliyi siyasi qərarla və Mərkəzi Bankın inzibati qərarları ilə olur. Açığı, düşünmürəm ki, bu il neftin qiymətinin 70 dollardan yüksək olduğu bir şəraitdə, həmçinn ölkədəki sosial, iqtisadi vəziyyəti nəzərə alaraq məzənnə dəyişikliyə gedəcək. Amma bu o demək deyil ki, növbəti illərdə, yaxud da gələn il məzənnə dəyişikliyi olmayacaq".

**N.Cəfərli əlavə edib ki, uzun zaman müddətində məzənnəni sabit saxlamaq da mümkün deyil:** "Biz bunun fəsadlarını bir dəfə yaşamışıq. Xatırlayırsınızsa, 2005-2015-ci illərdə sabit məzənnə rejimində yaşadıq. Sonradan üç dəfə devalvasiya oldu. Təbii ki, uzun zaman sabit məzənnə rejiminin öz fəsadları var. Fikrimcə, yaxın aylarda məzənnə dəyişməyəcək. Amma bu o anlama gəlmir ki, gələn il, yaxud da ondan sonrakı illərdə bu baş verməyəcək. Əksinə, düşünürəm ki, gələcəkdə manatın məzənnəsinin dəyişməsi nəinki mümkündür, hətta belə deyək ki, qaçılmazdır".

**Aynurə Pənahqızı**

# Geri qalırıq...

## Vaksinasiya prosesini sürətləndirmək üçün görüləsi xeyli işlər var



*“Daha məqsədəuyğun olardı ki, iri ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində elektron COVİD-19 pasportlarını oxuyan xüsusi avadanlıqlar quraşdırılsın”*

"Vaksinasiya prosesinin tam elektronlaşdırılmasına ehtiyac var".

Bu fikirləri Milli Məclisin deputatı Vüqar Bayramov şəxsi feysbuk hesabında yazıb. O qeyd edib ki, sentyabrın 1-dən yaşı 18-dən yuxarı olan şəxslər qapalı məkanda fəaliyyət göstərən ictimai iaşə müəssisələri, mehmanxanalar və iri ticarət mərkəzlərindən yalnız COVID-19 pasportu olduğu halda istifadə edə biləcəklər:

”Ümumdünya Səhiyyə Təşkilatı əhali arasında vaksinasiya səviyyəsinin ən azı 65 faizdən çox olduğu halda əvvəlki normal həyata qayıtmağın mümkünlüyü qənaətindədir. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, indiyədək 4 milyon 564 min peyvənd aparılıb. Hər iki doza peyvənd olunanların sayı isə 1 milyon 910 min nəfərdir. Türkiyədə bu gün koronavirusdan 63 nəfər ölüb. ”Bloomberg”in məlumatına görə, Azərbaycanda əhalinin cəmi 19.1 faizi hər iki doza peyvənd olunub. Göründüyü kimi, tam vaksinasiya səviyyəsinə görə Azərbaycan MDB-də birinci olsa da peyvənd olunan vətəndaşlarımızın sayı hələlik ÜST-nin 65 faizlik tövsiyəsindən aşağıdır”.

**V.Bayramov əlavə edib ki, yeni qaydaların tətbiqində məqsəd vaksinasiya prosesini sürətləndirməkdir:** ”Bununla belə, yeni qaydaların tətbiqi ilə yanaşı, onların icrasına nəzarətin daha da gücləndirilməsi və prosesin tam elektronlaşdırılmasına ehtiyac var. Əvvəlla, daha məqsədəuyğun olardı ki, iri ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində elektron COVİD-19 pasportlarını oxuyan xüsusi avadanlıqlar quraşdırılsın. Bu, prosesə elektron nəzarəti formalaşdırmaqla yanaşı, eyni zamanda növbələrin sayını və kənar müdaxiləri azaldar. Digər tərəfdən, qaydaların icrasına ictimai nəzarətin gücləndirilməsinə ehtiyac var. Pandemiyanın ilk aylarında vətəndaş cəmiyyəti institutları maarifləndirmə tədbirlərində fəal iştirak etsələr də, sonrakı mərhələlərdə bu istiqamətdə aktivlikləri azaldı. Əksər dövlət qurumlarının yanında İctimai Şuraların yaradıldığını nəzərə alsaq, vətəndaş cəmiyyəti institutlarının prosesə aktiv cəlb olunması və monitorinqlər aparması məqsədəuyğun olardı. Bütün bunlar vaksinasiya prosesinin sürətləndirilməsinə dəstək ola bilər”.

**Aynurə Pənahqızı**



## Tovuzda vəhşilik...

### Ata oğlunu zəncirlə ağaca bağlayaraq döyüb

**Tovuz rayonunda ata oğlunu ağacla döyüb. Hadisə rayonun Cəlilli kəndində qeydə alınıb.**

Kənd sakini, 2009-cu il təvəllüdlü yeniyetmə atası tərəfindən ağacla döyülərək xəsarət alıb.

O, Tovuz Rayon Mərkəzi Xəstəxanasına aparılıb, ona ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb.

Atanın oğlunu zəncirlə ağaca bağlayaraq döyməsinin səbəbi isə hələlik məlum deyil.

Tovuzda atanın 12 yaşlı oğlunu zəncirlə ağaca bağlayaraq döyməsi faktı ilə bağlı araşdırmalara başlanılıb.

Bu barədə ”Report”un Qərb Mərkəzinə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan məlumat verilib.

**Bildirilib ki, uşağı atası Şahin Mustafayev ağac parçası ilə döyüb. Nəticədə o, xəsarət alıb:** ”Hazırda araşdırma aparılır və məsələyə aparılan araşdırmalardan sonra hüquqi qiymət veriləcək”.

# Satanların, yayanların yuxusu ərşə çəkilib

## “Patı”nı satanlar dizini yerə qoyana qədər mübarizə davam etməlidir

Hüquq-mühafizə orqanlarının "patı" əməliyyatı davam edir. Son günlər ərzində narkotik vasitələr, eləcə də adına "patı", "şüşə" deyilən psixotrop maddələrin satışı ilə məşğul olan şəxslərin aşkar edilərək tutulması bu sahədə ciddi iş aparıldığını göstərir. Polis təkcə əldən-ələ narkotik vasitə satanları deyil, onlayn satışla məşğul olanlara deyil, narkotik maddə təbliğatını sosial şəbəkə üzərindən aparanlara qarşı da sərt tədbirlər görür.

Belə əməliyyatlar yalnız paytaxtla məhdudlaşmır, regionlarda da iş aparılır. Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri növbəti əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitə və ”patı”, ”şüşə” kimi tanınan psixotrop maddənin qanunsuz dövriyyəsi ilə məşğul olan 9 nəfər Lənkəran rayon sakini saxlanılıb. DİN Mətbuat Xidmətinin Lənkəran Regional Qrupunun Baş inspektorunun ”Sputnik Azərbaycan”ın bölgə müxbirinə verdiyi məlumata görə, Lənkəran RPŞ-nin əməkdaşları daxil olmuş məlumat əsasında əməliyyat keçiriblər. Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Lənkəran rayon sakinləri Zöhrab İbadov, Ramin Abdullayev, Azər Rüstəmov və Sabir Vəliyev saxlanılıblar. Onlardan satış üçün nəzərdə tutulmuş hazır bükümlərdə narkotik vasitə heroin və psixotrop maddə metamfetamin, 1 ədəd elektron tərəzi aşkarlanaraq götürülüb. S.Vəliyevin həmçinin Lənkəran şəhəri ərazisindəki evlərdən birindən mobil telefon oğurladığı da müəyyən edilib. Həmin mobil telefon S.Vəliyevdən aşkarlanaraq maddi sübut kimi götürülüb. Lənkəran RPŞ-nin Liman polis bölməsinin əməkdaşlarının keçirdikləri ardıcıl əməliyyat tədbirləri ilə rayon sakinləri Ramal Zeynallı, Füqan Qulizadə, Bəhruz Kərimov, Elşad Səfərov və Xalid Məmmədli saxlanılıblar. Onlardan satış üçün nəzərdə tutulmuş hazır bükümlərdə heroin və metamfetamin, 4 ədəd elektron tərəzi aşkarlanaraq götürülüb. Faktlarla bağlı araşdırma davam etdirilir.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan ehtiyatda olan polis polkovniki Mahmud Hacıyev qeyd etdi ki, hüquq-mühafizə orqanları ”patı” satanlara qarşı uğurlu əməliyyatlar keçirir:**



### Bütün ölkə bu işə dəstək verir, Gömrük Komitəsindən səs çıxmır

- Bu məsələdə əsas yük hüquq-mühafizə orqanlarının üzərindədir. KİV də sağ olsun ki, üzərinə düşən vəzifəni yerinə yetirir, bu çox ciddi, təhlükəli problemi gündəmdə saxlamaqla ictimaiyyətin maariflənməsinə və məlumatlanmasına yardım edir. Hüquq-mühafizə orqanları nə lazımdır, edirlər. İstintaq-əməliyyat tədbirləri keçirirlər və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olanları məsuliyyətə cəlb edirlər. Amma problemin kökü narkotik vasitələrin ölkəyə gətirilməsi, yayılmasıdır. Əsas onu gətirənlər, yayanlar aşkarlanmalı və həbs edilməlidir. Bu isə artıq Gömrük Komitəsi və Sərhəd Qoşunlarının işidir. Düzdür Sərhəd Qoşunları sərhəddə ayıqsayıqlığı qoruyur, hətta ötən dəfə atışma da olmuşdu, 1 sərhədçimiz də şəhid oldu. Narkotik vasitələrin dövriyyəsinin qarşısını almaq çətindir. Bütün dünya bununla mübarizə aparır, amma tamam-kamal qarşısını ala bilmirlər. Lakin bu o demək deyil ki, məğlubiyyətlə barışmalıyıq. Xeyir. İş görmək, daha güclü çalışmaq lazımdır. Gömrük Komitəsinin bu sahədə fəaliyyəti isə görünmür. Fəaliyyətləri varsa da, bu haqda məlumat sıfır dərəcəsindədir. Görürük ki, Prokurorluq, Daxili İşlər Nazirliyi KİV-lə necə əlaqəli işləyir. Məlumatlar operativ şəkildə yayılır. Amma Gömrük Komitəsi ilə bağlı eyni sözləri söyləmək mümkün deyil. Nə iş görürlər, hansı fəaliyyətləri var, özləri bilir. Heç bir açıqlama, məlumat vermirlər. Təəssüf ki, hesabatlarını da görmürük. Gömrük Komitəsinin də əməliyyat şöbəsi, qaçaqmalçılıqla mübarizə şöbəsi var. Onlar KİV-lə əlaqələri lazımi səviyyədə təşkil etməyiblər. Gömrük Komitəsi, Sərhəd Qoşunları hüquq-mühafizə orqanları ilə - polislə birgə işləməlidir, informasiya mübadiləsi aparmalıdırlar. Belədə fəaliyyət daha səmərəli olar, nəticə görünər. Yəqin bu qurumlar deyilənlərdən ölçü götürəcək.

**Məlahət Rzayeva**

# Müharibə olmayacaq



*İrəvanı sülh müqaviləsini imzalamağa məcbur etmişik*



Ermənistan müdafiə nazirinin birinci müavini Arşak Karapetyan iyulun 27-də Moskvaya uçub. Məlumatı "168.am" saytı yayıb. Bildirilib ki, o, səfər çərçivəsində Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ilə görüşəcək.

İyulun 26-da Rusiya Müdafiə Nazirliyi Şoyqu ilə Karapetyan arasında telefon danışığının olduğunu bildirmişdi. Həmin danışıqda regional təhlükəsizlik, eləcə də qarşılıqlı maraqlar müzakirə edilib.

**Siyasi analitik Rusif Məmmədsoy sözügedən səfər barədə "Şərq"ə danışıb:** "Bu, gözlənilən idi. Rusiya Ermənistanı təlimatlandıracaq. Hərçənd, bəlkə də, buna ehtiyac yox idi. Biz artıq İrəvanı məcbur edə bildik. Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan özü də deyib ki, yekun sülh müqaviləsini imzalamağa hazırdır".

R.Məmmədsoy, həmçinin proseslərin gələcək inkişafı barədə proqnozlarını bölüşüb: "Müharibə olmayacaq. Ermənistanın bunun üçün lazımi potensialı yoxdur. Son günlər baş verənlər isə Bakının məcburetmə əməliyyatları idi. Çünki Ermənistan üçtərəfli razılaşmaları yerinə yetirmirdi.

Əlbəttə, əməliyyatların Prezident İlham Əliyevlə rusiyalı həmkarı Vladimir Putin arasındakı görüşdən sonra baş verməsi təsadüfi deyil.

Putin də Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. Və əslində bu, İrəvanın özü üçün də faydalıdır".

**Kənan**

## İranda inqilab olmayacaq

Çünki güc strukturları iqtidarın arxasındadır



**İranın Xuzistan əyalətində baş qaldıran su qiyamı artıq, demək olar ki, ölkənin bütün bölgələrinə yayılıb.**

"Azad İran" "Telegram" kanalı xəbər verir ki, İranın Qüds şəhərində də artıq insanlar rejimə qarşı etiraz mitinqlərinə hazırlaşır. Buna görə şəhərə çox sayda təhlükəsizlik qüvvələri və hərbi texnika yeridilib.

Sakinlərin çəkdiyi bir videoda İran polisinin mümkün etirazlara nəzarət edə bilmək üçün havaya helikopter qaldırdığı müşahidə edilir. Politoloq Sədrəddin Soltan cənub qonşumuzdakı mövcud vəziyyəti "Şərq"ə şərh edib: "Bu, adi su qiyamı deyil. Sosial problemlərin təzahürüdür. Sanksiyalar, pandemiya sosial vəziyyəti pisləşdirib. Hakimiyyət əlindəki pulu müxtəlif ölkələrdəki tərəfdarlarına ayırır. Beləliklə, sosial problemlər həll olunmamış qalır".

**S.Soltanın sözlərinə görə, proseslər ciddi nəticələrə səbəb olmayacaq:** "Su qıtlığı yeni məsələ deyil. Hələ iyirmi il əvvəldən Urmiya gölünün quruması ilə bağlı həyəcan təbili çalınmışdı. Lakin hakimiyyət buna məhəl qoymadı. İndi insanlar müxtəlif siyasi şüarlar səsləndirir, siyasi hakimiyyət qarşısında tələblər qoyurlar. Amma inqilab olmayacaq. Çünki güc strukturları iqtidarın arxasındadır. Hakimiyyət isə öz növbəsində təqib və təzyiqlərdən əl çəkməlidir. Əks halda bu, ona baha başa gələcək".

**Kənan**

## Epidemioloji vəziyyət pisləşib

Bəzi şəxslər üçün vaksinasiya məcburi olacaq



**Volqoqradda baş sanitar Olqa Zubarevanın əmri fərmanına əsasən bəzi vətəndaşlar üçün məcburi vaksinasiya tətbiq olunacaq.**

Bu barədə "Şərq" "RİA Novosti"yə istinadən xəbər verir. Bildirilir ki, bunun səbəbi epidemioloji vəziyyətin pisləşməsidir. Son həftələr yoluxma sayında kəskin artım müşahidə olunur.

**Kənan**

## Qarabağda Ermənistan hərbçisi intihar etdi



**Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisi Qarabağda Ermənistan hərbçisi Sarkis Jirayroviç Qriqoryan intihar edib. Bu barədə Sputnik Ermənistan xəbər verir.**

Məlumatda qeyd olunur ki, hadisə 26 iyul saat 22:00 radələrində baş verib. S.Qriqoryan döş qəfəsinin sol nahiyəsindən güllə yarası alıb və bunun nəticəsində ölüb.

2002-ci il təvəllüdlü hərbçinin intihar faktı ilə əlaqədar Ermənistan İstintaq Komitəsi tərəfindən cinayət işi açılıb.

# ABŞ-ın regionla bağlı qaranlıq planları var

"Co Bayden Əfqanıstan qərarından sonra ABŞ qoşunlarının İraqdan da çəkilməsi ilə bağlı qərar qəbul etdiklərini açıqladı. İraq Baş naziri Mustafa əl-Kazıminin ABŞ-a səfər etməsi və ABŞ Prezidenti Co Baydenlə görüşməsi tərəflər arasında hansısa prosesin getdiyini göstərirdi.



*Əfqanıstandan sonra qoşunların İraqdan çıxarılması təsadüfi deyil*

Tərəflər arasında keçirilən görüşdən sonra verilən açıqlamada ABŞ-ın İraqdan qoşunlarını ilin sonuna kimi geri çəkməsi haqqında qərarını açıqlaması bəzi şübhələrin yaranmasına səbəb oldu. Co Bayden bildirib ki, ABŞ hərbi qüvvələrin çəkilməsindən sonra da İraq ordusuna terrorizmlə mübarizə və təlimlərdə dəstək verməyə davam edəcək".

**Bu fikirləri siyasi-şərhçi Samir Hümbətov "Şərq"ə açıqlamasında deyib. O qeyd edib ki, ABŞ prezidenti açıqlamasında bəzi qaranlıq fikirlər səsləndirib:** "O bildirib ki, "İraqda işlərin yaxşı getdiyinə inanıram. Bu vəziyyətdə İraqdakı rolumuz lazımi məqama hazır olmaq, yardımlar etmək, baş qaldırdıqda İŞİD-lə mübarizə şəklində olacaq. Amma ilin sonuna qədər hərbi missiyamız başa çatacaq". Co Baydenin bu çıxışından belə qənaətə gəlmək olar ki, ABŞ İraqda da Əfqanıstan senarisi üzrə hərəkət edir. ABŞ prezidentinin çıxışı zamanı səsləndirdiyi bəzi fikirlər isə şübhəli məqamların olmasına açıq işarədir".

*S.Hümbətov qeyd edib ki, ABŞ-ın Əfqanıstanda olduğu kimi İraqdan da tələsik şəkildə çıxması ABŞ-ın regionla bağlı hansısa qaranlıq planlarının olmasına şübhələri artırır:* "ABŞ-ın İraqdakı mümkün senariləri bu şəkildə ola bilər. Birincisi, Əfqanıstanda "Taliban"ın aktivləşməsi və ölkənin əksər ərazilərini nəzarətə götürməsi reallaşır. Eyni zamanda İraqda da İŞİD yenidən aktivləşdirilə və regionda qeyri-sabitlik davam etdirilə bilər. Həmçinin, İraqda yerləşən və İrana bağlı silahlı qruplarla İŞİD arasında münaqişənin daha da alovlandırılması gözlənilir. Digər senari, ABŞ Şimali İraqda Kürdistan Muxtariyyətinə dəstəyini artırmaq və Şimalda Peşmərgəni İraq mərkəzi hökumətinə qarşı daimi təzyiq vasitəsi kimi istifadə etmək niyyətindədir. Üçüncüsü, ABŞ PKK, PYD, YPG və digər terror təşkilatlarının fəaliyyətini aktivləşdirmək, onları silahsursatla təmin etmək və bu terror qrupları vasitəsi ilə Türkiyəyə təsir etmək cəhdlərini həyata keçirmək istəyir. Daha çox hissəsi Şimali İraqda yerləşən İraq neft sənayesini Kürdistan Muxtariyyəti vasitəsi ilə nəzarətdə saxlamağa çalışacaq. Görünən odur ki, Yaxın Şərqdə yenidən vəziyyət gərginləşməyə doğru getməkdədir. İraqda yaranacaq növbəti qeyri-sabitlik demək olar ki, bütün Yaxın Şərqə öz təsirini göstərə bilər".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;**



# Bilgilənmək şərtdir

*İnternet sahəsində kibercinayətlərin sayı sürətlə artır*

XX əsrin son onilliyində informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib. Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə edir. Bütün dünya ölkələri hazırda informasiya və kommunikasiya texnologiyalarının verdiyi imkanlardan faydalanırlar.

Azərbaycanı da bu ölkələr arasında görmək hər birimiz üçün sevindiricidir. Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur. Lakin hər yeniliyin, xüsusən internet sahəsindəki texnoloji tətbiqlərin özünəməxsus neqativləri, sui-istifadə hallarına şərait yaradan məqamları da var. Belə neqativ hallardan biri də internet sahəsindəki kibercinayətlərdir. Son dövrlər kibercinayətlərin sayı durmadan artmaqdadır. Getdikcə qarşısıalınmaz problemə çevrilən bu məsələ ciddi təhlükələr törətməyə başlayıb. Gündəlik həyatımızı asanlaşdıran texnoloji vasitələr və yeniliklər bəzən ehtiyatsızlıq ucbatından müxtəlif problemlər yarada bilir. Azərbaycanda bu istiqamətdə müxtəlif işlər görülsə də, problemlər hələ də qalmaqdadır. Cəmiyyətin müxtəlif təbəqələrindən olan, müxtəlif peşələrdə çalışan insanlar kibercinayətkarlıqla rastlaşır. Son statistikaya görə, 2021-ci ilin birinci rübündə texnologiya sahəsində kiberinsidentlərin sayı 2020-ci ilin dördüncü rübü ilə müqayisədə 54 faiz artıb. Bəzi ekspertlərə görə, pandemiya ilə əlaqədar olaraq onlayn xidmətlərdən istifadə son dönəmlər kəskin artıb. Əvvəl heç bir onlayn xidmət göstərməyən müəssisələr də bu rejimdə fəaliyyət göstərməyə məcbur olublar. Onlayn xidmətlərdən istifadə edənlərin sayının artması ilə paralel olaraq kiber hücumlar da artmağa başlayıb, dələduzluq imkanları da genişlənib.

**Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin müəllimi, hüquqşünas Mirakif Babayev "Şərq"ə deyib ki, virtual dünyada xakerlər uzunmüddətli fəaliyyət göstərirlər. Ekspert bildirib ki, müasir zamanda internetsiz həyat təsəvvür edilmir**: "Peşəmizdən asılı olmayaraq hamımız hər gün mütəmadi internetə giririk. Kibercinayətkarlar İP adresimizi, kompüterimizdə olan informasiyaları asanlıqla götürür, yazılaşmalarımızı oxuyur, "email" adresimizə girirlər. Əsasən, onlayn alış-verişə ciddi müdaxilə edirlər. Pandemiya səbəbindən uzun müddətdir ki, alış-verişlər internet üzərindən həyata keçirilir. Onlayn alış-veriş zamanı isə bank kartlarımız qeydiyyata düşür. Kibercinayətlər ələ keçirdikləri bank kartları ilə bizim əvəzimizdən pul çəkirlər. Məsələ ondadır ki, internetlə işləyən əksər insanların bu sahədə bilgiləri çox səthidir. Kibercinayətkarlar da bundan istifadə edir, müəyyən üsullarla insanları şirnikləndirir, adamların işsiz olmasından yararlanırlar. İnternet vasitəsilə asanlıqla pul qazanmağın "yollarını" öyrətdiklərini iddia edirlər. Müxətlif metodlarla bank kartlarının nömrələrini ələ keçirirlər. Telefon və kompüterlərdə çox vaxt təhlükəsizlik kodlarından istifadə edilmir, yaxud əksər hallarda bəsit parollar qoyurlar. Sadə parolları sındırmaq isə asan başa gəlir. Ona görə də xakerlərin işi asanlaşır".

*M.Babayev vurğulayıb ki, insanlarımızın texnoloji bilikləri yüksəlməlidir:* "Ötən gün oxudum ki, 4 milyard insanın telefon nömrəsi, digər əlaqə vasitələri satışa çıxarılıb. Kibercinayətkarlar bunları qanunsuz yollarla əldə edərək satışa çıxarıblar. Bu sahədə "qarainterner" kimi terminlər peyda olub. Həmin sektorda alqı-satqı prosesləri gedir. Problem odur ki, özümüz haqqında bütün məlumatları başqalarına verən də yenə özümüzük. Feysbuk, instaqram və digər sosial şəbəkələr vasitəsi ilə şəxsi bilgilərimizin əlçatan olmasına şərait yaradırıq. Başa düşməliyik ki, kompüteri, mobil telefonları işlədiriksə, mümkün qədər ehtiyatlı olmalıyıq. Bütün smartfon tipli telefonların içində səsimizi yazan xüsusi qurğular olur. Kompüterlərin vebkamerası bağlı olsa belə yenə də insanları izləmək mümkündür. Texniki avadanlığın daxilində xüsusi çiplər var və onlar haqqında heç vaxt məlumat verilmir. Keçmişdə agenturanın gördüyü işləri indi mobil telefonlar həyata keçirir. Ona görə də həddindən artıq bu sahədə bilgilənmək şərtdir".

**Başa düşməliyik ki, kompüteri, mobil telefonları işlədiriksə, mümkün qədər ehtiyatlı olmalıyıq**

**BDU-nun müəllimi bəyan edib ki, xakerlərin toruna əsasən yaşlı insanlar düşürlər. Cavanların problemi isə başqadır:** "Telefonlarımıza internet üzərindən hansısa proqramı yükləyiriksə, həmin proqramların 80 faizi bizdən informasiya toplayır. Məsələn, adi bloknot proqramı yükləyirsən. Yükləmə zamanı proqram telefonun foto, video, imeyl adresinə və s. yerlərə girmək üçün icazə istəyir. Hətta bəzi proqramlar redaktə etmək icazəsini də tələb edirlər. Əfsuslar ki, çoxumuz buna diqqət yetirmirik. Tələb olunan şərtləri demək olar ki, oxumuruq. Praktika göstərir ki, 99 faiz istifadəçi heç vaxt proqramların ortaya qoyduğu müqavilə şərtlərinə diqqət yetirmir. Bunu "Maykrasoft" şirkəti özü deyir. Antivirus şirkətləri arasında isə əməlli-başlı "müharibə" gedir. Şirkətlərin özləri bir-birinin əleyhinə cürbəcür viruslar hazırlayırlar. Gün ərzində milyonlarla virusu meydana sürürlər. Bu sahədə güclü mütəxəssislərə ehtiyac var. İnsanları maarifləndirmək lazımdır ki, internetin faydaları ilə yanaşı, xeyli təhlükəli olan zərərləri də mövcuddur. Heç olmasa, ən təməl texniki bilgilərə yiyələnmək vacibdir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Bütün tələbələr peyvənd olunacaq

*Çünki bunsuz ənənəvi təhsilə qayıtmaq mümkün deyil*

Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" qərarda dəyişiklik edib.



"Yaşı 18-dən yuxarı olan tələbələrdən də sentyabrın 1-dən etibarən COVİD-19 pasportu tələb olunacaq. Bu qərar tək Azərbaycana aid deyil"

Qərara əsasən, "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə uyğun olaraq, ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimində 2021-ci il 01 sentyabr tarixindən etibarən ali və orta-ixtisas təhsili müəssisəsində təhsil alan yaşı 18-dən yuxarı bütün şəxslərdən COVID-19 pasportu tələb olunacaq. Məhz bu qərar gənclər - tələbələr arasında narazılıq yaradıb. Tələbələr arasında "peyvəndləmə könüllüdür, tələb qoyula bilməz" deyə, NK-nin qərarına etiraz edənlər var.

Tələbələrə "vaksinasiya" tələbi qanunidirmi?

Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, NK-nin məlum qərarı mövcud duruma adekvatdır:

- Peyvəndləmə o zaman könüllüdür ki, yoluxucu xəstəliklər pandemiya riski daşımır. Könüllülük prinsipi dinc şərait üçündür. Hazırda isə bütün dünya koronavirus və onun yeni növləri, ştamları ilə mübarizə aparır. Artıq il yarımdır bu mübarizə davam edir və bütün dünya pandemiyadan çıxış yolunun vaksinasiyada olduğunu bildirir. Azərbaycan Respublikası Cinayət Məcəlləsi, eləcə də İnzibati Xətalar Məcəlləsinə görə yoluxucu xəstəlikləri yaymaq, yaymağa şərait yaratmaq cinayət tərkibli əməl hesab edilir. Görürük ki, karantin qaydalarını pozan şəxslər, iaşə obyektləri, müəssisələr cərimə edilir, məsuliyyətə cəlb olunurlar. Deməli, yoluxucu xəstəliyin yayılma təhlükəsi realdır. Bu baxımdan yaşı 18-dən yuxarı olan tələbələrdən də sentyabrın 1-dən etibarən COVİD-19 pasportu tələb olunacaq. Bu qərar tək Azərbaycana aid deyil. Təhsil göstəriciləri üzrə ilk 10-luqda olan dünyanın aparıcı ali təhsil müəssisələri də eyni qərarı qəbul edib. Çünki bunsuz ənənəvi təhsilə qayıtmaq mümkün olmayacaq. Pandemiyanın qarşısının alınmasının yeganə şərti vaksinasiyadır. Normal həyata, ənənəvi təhsilə qayıtmaq üçün vaksinasiya vacibdir. İl yarım nüddətdə davam edən distant təhsil, onlayn tədrisin çətinliklərini gördük. Bir çox şagirdlər, tələbələr dərslərə qoşula bilmirdi, texniki imkanlar çox zəif idi. Nəticədə təhsilimiz axsadı. Onlayn tədris ənənəvi tədrisi əvəz edə bilmədi. İstəyiriksə ki, ənənəvi tədrisə qayıdaq, auditoriyada əyləşək, vaksinasiya olunmalıyıq. Həm də vaksinasiyaya dair əks-göstərişi olanlara sertifikat təqdim olunacaq. O demək deyil ki, bütün tələbələr ucdantutma peyvəndlənməlidir. Kiminsə səhhətində problem varsa, müalicə və ya sahə həkimi vaksinasiyanı məsləhət görmürsə, o şəxslərə xüsusi sertifikat veriləcək.

**Mələhət Rzayeva**

# Universitetlərin Qarabağa köçürülməsi real deyil



*Ancaq gələcəkdə Bakı Musiqi Akademiyası Şuşaya, Azərbaycan Dövlət Pedaqoji Universiteti Ağdama köçürülə bilər*

Həm paytaxtın, hən də Bakıdakı bir sıra ali təhsil ocaqlarının bölgələrə köçürülməsi təklifi müxtəlif ictimai-siyasi xadimlərimiz, ziyalılarımız tərəfindən gündəmə gətirilib. Hazırda bu məsələ yenidən aktuallaşıb. Ancaq indi paytaxtın və universitetlərin bu və ya digər bölgəyə deyil, məhz işğaldan azad olunan ərazilərə - Qarabağa, Şərqi Zəngəzura köçürülməsi təklif olunur.

Bəzi siyasilərimiz hesab edir ki, Bakı həddindən artıq yükləndiyinə və şəhərin problemləri çoxaldığına görə paytaxtı Qarabağa köçürmək məqsədəuyğundur. Yəni işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması prosesinə start verilməsi də onların fikrincə, paytaxtın sözügedən ərazilərə köçürülməsi işini xeyli dərəcədə asanlaşdıra bilər. Eyni zamanda hazırkı şəraitin universitetlərin də Qarabağa köçürülməsinə və yaxud da ki, ən azından onların Qarabağda filialının açılmasına imkan verdiyini bildirirlər.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov isə "Şərq"ə bildirib ki, çeşidli səbəblər üzündən nə paytaxtın, nədəki universitetlərin işğaldan azad edilmiş ərazilərə köçürülməsi real deyil. Partiya rəhbərinin sözlərinə görə, ilk növbədə söhbət zaman amilindən gedir:** "Universitetlərin köçürülməsi və normal fəaliyyətə başlaması üçün əvvəlcə həmin ərazilərin minalardan təmizlənməsi və bərpası işləri, daha sonra isə məskunlaşdırılması, məcburi köçkünlərin öz yurdlarına qaytarılması prosesi həyata keçirilməlidir. Bütün bunlar isə ən yaxşı halda minimum beş il vaxt tələb edir. Qarşıdakı 5 il ərzində Ağdamda, Füzulidə və ya Qubadlıda hər hansı bir universitetin normal fəaliyyətə başlaması inandırıcı deyil. Ancaq gələcəkdə Bakı Musiqi Akademiyası Şuşaya, Azərbaycan Dövlət Pedaqoji Universiteti Ağdama köçürülə bilər. Ola bilsin, perspektivdə bəzi ali təhsil ocaqlarının, eləcə də kolleclərin işğaldan azad edilmiş rayonlarımızdan hər hansı birinə köçürülməsi üçün hansısa zərurət və ya münbit şərait yaranacaq".

*Ə.Hüseynov paytaxtın Qarabağa, misal üçün, Şuşaya köçürülməsi məsələsini bu cür şərh edib:* "Hesab edirəm ki, biz bu məsələyə münasibət bildirərkən tarixi təcrübəmizdən çıxış etməliyik. 20-ci əsrin əvvəlində də, sonlarında da Qarabağ ermənilər tərəfindən talanlara, terrora, işğala məruz qalıb. Deməli, biz bu təhlükə ilə - erməni təcavüzkarlığı ilə gələcəkdə yenə də üzləşə bilərik. Paytaxtı düşmən ölkə ilə sərhədlərimizə yaxın əraziyə köçürmək gələcəkdə milli təhlükəsizliyimiz üçün potensial risk ehtimalını artırar. Ümumiyyətlə, dünyanın əksər ölkələri bu və ya digər səbəblər üzündən paytaxtı qonşu ölkələrlə həmsərhəd ərazilərdəki şəhərlərdə yerləşdirməkdən ehtiyat edir. Zənnimcə, biz də bu ənənədən çıxış etməliyik. İstisnalar isə əlbəttə, ənənəni dəyişmir".

**İsmayıl Qocayev**

## Müharibə böyük şans yaratdı

### Türkiyə, Azərbaycan və Pakistan arasında iqtisadi ticari əlaqələr daha da genişlənəcək



**Dünən Türkiyə, Azərbaycan və Pakistan parlamentlərinin sədrləri Mustafa Şentop, Sahibə Qafarova, Əsəd Qayseri arasında birinci üçtərəfli toplantı keçirilib. Toplantının yekun sənədi olaraq "Bakı bəyannaməsi" imzalanıb.**

Millət vəkili Vüqar Bayramov "Şərq"ə bu bəyannamənin iqtisadi əhəmiyyətindən danışıb. O bildirib ki, imzalanan yeni bəyannamə ilə üç qardaş ölkə arasındakı strateji münasibətlər yeni mərhələyə qədəm qoyacaq: "Artıq Azərbaycan hər iki ölkə ilə iqtisadi sahədə əməkdaşlığı gücləndirməkdədir. Türkiyə şirkətləri işğaldan azad olunan ərazilərimizin bərpa və yenidənqurmasında yaxından iştirak edirlər. Pakistan şirkətləri ilə də genişmiqyaslı əməkdaşlıq imkanları var. Bu əməkdaşlıq, ümumi nominal ümumi daxili məhsulu 1 trilyon dollardan çox olan 3 ölkənin strateji baxımdan birlikdə olması anlamına gəlir. Digər tərəfdən, 743 milyard dollar ÜDM-lə Türkiyə, 314 milyard dollarlıq iqtisadiyyatı olan Pakistan və 47.1 milyard dollarlıq ÜDM-yə malik olan Azərbaycan yerləşdiyi bölgədə strateji mövqelərə malikdirlər".

**Deputat vurğulayıb ki, üç ölkə arasında ticarət dövriyyəsinin növbəti illərdə, xüsusən də pandemiyadan sonra daha da genişlənəcəyi gözlənilir:** "Hazırda, Azərbaycan ilə Türkiyə arasındakı illik ticarət dövriyyəsi 4.2 milyard dollardır və son 2 ildə iki ölkə arasındakı dövriyyə 70 faizə yaxın artıb. Azərbaycanla Pakistan arasındakı illik ticarət dövriyyəsi isə 13.2 milyon dollardır. Ölkələr ticari əməkdaşlığı son üç ildə 80 faizə yaxın genişləndirə biliblər.

Göründüyü kimi, Azərbaycan ilə hər iki ölkə arasındakı iqtisadi və ticari əlaqələr son illər ciddi artım tempi ilə inkişaf edir. Vətən müharibəsində Azərbaycanın haqq işinə mənəvi dəstək olan iki qardaş ölkəni təmsil edən şirkətlərin işğaldan azad olunan ərazilərimizin bərpasında daha yaxından iştirak imkanları da var. Gözlənilir ki, post-pandemiya dövründə hər üç ölkə arasında həm iqtisadi əlaqələrdə, həm də ticarət dövriyyəsində ciddi artımlar qeydə alınacaq".

**Aynurə Pənahqızı**

# Qadınlar var, şərait də var

*Azərbaycanda biznes ledilərin sayı hər il artır*

Sahibkar "yenilik" və "yaradıcılıq" anlayışlarını özündə birləşdirən şəxsdir. Sahibkarlıq maliyyə, fiziki və sosial riskləri olan kifayət qədər səy və vaxt sərf edərək yeni dəyər yaratmaqdır. Bu fəaliyyət növündə qadınların aktivliyi artan dinamika ilə inkişaf edir. Qadınların iqtisadiyyatda rolunun artırılması həm də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 17 hədəfindən biridir.

Son 20 ildə isə iş dünyasında qadınların rolu və çəkisinin intensiv artdığı göz önündədir. Xanımların sahibkarlıq fəaliyyətini artırmaq, onların hüquqlarının qorunması və layiqli əməyin təmin olunması, müasir dövrün və əmək bazarının tələblərindən irəli gələn istiqamətlər üzrə maarifləndirici layihələrin həyata keçirilməsi Azərbaycanda bu sahədə atılan addımlardan sadəcə bir neçəsidir.

Qadınların hüquqlarının qorunması onların iqtisadi müstəqilliyi ilə birbaşa bağlıdır. Bu səbəbdən qadın sahibkarlığının inkişafı böyük əhəmiyyət kəsb edir və olduqca aktual mövzudur. Qadınlar arasında sahibkarlığın inkişafı cəmiyyətin inkişafına bütövlükdə təsir edir.

Azərbaycanda qadın sahibkalığının inkişafı üçün hər cür şərait yaradılıb. Prezident İlham Əliyevin qəbul etdiyi Strateji Yol Xəritələrinin icrası çərçivəsində yaradılan assosiasiya qadın sahibkarlığının inkişafında, qadın sahibkarlığı sahəsində təşəbbüskarlığın artırılmasında, sahibkar qadınların maraqlarının qorunmasında, şəffaflıq və sosial məsuliyyət prinsipləri əsasında onlara biznes xidmətlərinin göstərilməsində mühüm rol oynayır. Qeyd edək ki, 2020-ci ildə 174 329?sahibkarlıq subyekti qeydiyyata alınıb, onlardan 9230-u kommersiya hüquqi şəxs, 165 099-u fərdi sahibkardır. Kommersiya hüquqi şəxslərin 14,8 faizinin (1373) təsisçisi və fərdi sahibkarların 20,4 faizi (33 742)?qadındır.?Beynəlxalq müqayisələr göstərir ki, qadın sahibkarlığının inkişafı ölkədə iqtisadi artımın sürətlənməsi, sosial rifahın yaxşılaşması və inklüzivliyin təmin olunmasında əhəmiyyətlidir.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlama verib. O vurğulayıb ki, Azərbaycanda qadın sahibkarlığı ilə bağlı müxtəlif səpkili layihələr həyata keçirilir:** "Əsasən də buna maraqlı olan tərəf Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsidir. Təsadüfi deyil ki, pandemiyadan bir neçə il əvvəl daim maarifləndirici tədbirlər keçirirdilər. Bununla bağlı müxtəlif təşkilatları bu tədbirlərə cəlb edirdilər. Regionlarda İsveçrənin maliyyə dəstəyilə Azərbaycan Hökuməti, BMT-nin İnkişaf Proqramı qadın sahibkarlığının inkişafı ilə bağlı qadın resurs mərkəzləri açılıb. 2011-ci ildə Qadın Resurs Mərkəzlərinin yaradılmasına start veriləndən bəri, minlərlə qadın mühasibat uçotu və maliyyə savadlılığı, informatika, maliyyələşmə üsulları, qadınların insan hüquqları və iqtisadi hüquqları, habelə tərcümeyi-halın yazılması, təqdimat bacarıqlarının gücləndirilməsi və şəbəkələşmə kimi sahələrdə pulsuz təlimlərdən yararlanıb. Təlimlər yüzlərlə qadına maddi təchizatla qrant dəstəyindən istifadə edərək öz bizneslərini qurmaqda kömək edib".



Qadınlar artıq kişilərlə bərabər karyera qurmaq üçün eyni hüquqa malikdirlər

**R.Qarayev əlavə edib ki, kəndlərdə də bununla bağlı bir sıra tədbirlər keçirilib:** "Hazırda qadın sahibkarlığının inkişafı üçün istənilən şəxs qadın resurs mərkəzinə müraciət edərək istədiyi işin görülməsi üçün əsas avadanlıqlarla, parniklərin yaradılması üçün tikinti materialları ilə təchiz edilirlər. Sovet vaxtı kənd yerlərində əsas məşğuliyyət kənd təsərrüfatı idi. İttifaq dağılandan sonra, durğunluq yaranmışdı. İndi isə kənd qadını artıq bizneslə məşğul olaraq, kişilərlə bərabər ailənin və özünün maddi durumunu yüksəltmək üçün bu işdən yararlanmaq hüququ qazanıblar. Hazırda İqtisadiyyat Nazirliyinin yanında olan KOBİA da bu məsələyə təkan vermək üçün işlər görür. Vəsaitin verilməsi ilə bağlı müəyyən çətinliklər yaranır. Amma bu xırda məsələ sonradan öz həllini tapdı. Dövlət qurumunun qeydinə əsasən, 2012-ci ildə qadın sahibkarları 17.4 faiz təşkil edirdisə, artıq 2019-cu ildə 30 faizə qədər artmışdı (71.000-dən 183.000 qədər artmışdı). Beləliklə, qadın sahibkarlığı ölkədə artan istiqamət üzrə inkişaf edir. Müstəqil olaraq biznes ledilərin məlumatlarına görə onların əsas çətinlikləri xaricdən gətirilən mallardadır. Belə ki, onların iddialarına görə, gömrük prosesində olan çətinliklər sonda onların ölkəyə gətirmək istədiyi mallardan imtina etməsinə gətirib çıxarır".

**Aynurə Pənahqızı**




# I ixtisas qrupuna qəbul imtahanları keçirilib

*Dörd nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub*

İyulun 27-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən I ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 83 imtahan binası, 1431 imtahan zalı ayrılıb.

İmtahanların idarə olunmasına 83 ümumi imtahan rəhbəri, 238 imtahan rəhbəri, 1859 nəzarətçi-müəllim, 168 buraxılış rejimi əməkdaşı, 83 bina nümayəndəsi cəlb edilib. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahanın gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. İmtahan heyəti müvafiq qoruyucu vasitələrlə (əlcək, üz siperi, tibbi maska) təmin olunub. İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub. İştirakçıların bədən hərarəti normaya uyğun olub. Dörd nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric olunub.

Qeyd edək ki, iyulun 28-də DİM-in "Facebook" səhifəsi vasitəsilə canlı yayım ediləcək və Mərkəzin məsul əməkdaşları, ekspertlər tərəfindən həm bu gün, həm də sabahkı imtahanda istifadə olunacaq test tapşırıqları ilə bağlı geniş izahat veriləcək. Abituriyentlər suallarını "Facebook"da yerləşdirilən müvafiq postun altına yaza və ya info@dim.gov.az elektron poçtuna göndərə bilərlər. İyulun 28-dən etibarən DİM-də imtahan protokolları və materialların emalına başlanılacaq. İmtahanlarda istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur. Dövlət İmtahan Mərkəzi növbəti qəbul imtahanlarında iştirak edəcək abituriyentlərin bir daha nəzərinə çatdırır ki, sənədlərlə (şəxsiyyət vəsiqəsinin əsli, buraxılış vərəqi və sağlamlıq haqqında bəyannamə) bağlı diqqətli olsunlar. İmtahan saat 10:00-da başlanır. Saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır. Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

**Aynurə Pənahqızı**

# Şəffaf sistem hələ gözə dəymir



*Maşın nömrələri üçün auksion satış sistemi yaradılmalıdır*

Son zamanlar Daxili İşlər Nazirliyi bir çox yeni xidmətlər təqdim edir. Bir müddət öncə DİN texpasportun-sürücülük vəsiqəsinin formasını dəyişdiyini açıqlayıb. Daha sonra isə yeni "77" seriyası ilə başlayan avtomobil nömrələrinin verilməsinə başlandığı bildirildi.

**Mövzu ilə bağlı "Şərq"ə Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz açıqlama verib. O qeyd edib ki, bunların hamısını ilk baxışdan faydalı və uğurlu addımlar kimi dəyərləndirmək olar. Amma qəribədir ki, bu addımların heç biri müasir çağırışlarla ayaqlaşmır:** "Daxili İşlər Nazirliyi bu xidmətlərin rəqəmsal versiyasına diqqət yetirmir. Nazirlik hələ də klassik ənənələrə üstünlük verir. eGov Mərkəzi isə sanki xidmətlərin rəqəmsallaşmasını unudub. İndiyədək də, dəfələrlə təkrarlanmasına baxmayaraq, DİN avtomobillərin dövlət qeydiyyatına alınması, dövlət nömrə nişanlarının verilməsi xidmətini rəqəmsallaşdırmayıb. Qeyd edim ki, hələ də cəlbedici nömrələr üzrə şəffaf bir sistem formalaşmayıb. Hansı ki, bu xidmətləri rəqəmsal etmək üçün DİN-in əlində yetərincə texniki texnoloji və kadr resursları var".

DİN hələ də klassik ənənələrə üstünlük verir, xidmətlərin rəqəmsal versiyasına diqqət yetirmir

**O.Gündüz əlavə edib ki, Daxili İşlər Nazirliyi öz texnoloji imkanları ilə digər qurumlara rəqəmsallaşmaq üçün hətta resurslar da təqdim edir:** "Belə olan halda DİN-nin və eGov-a cavabdeh qurum olan VXSİ Dövlət Agentliyi yanında Elektron Hökumətin İnkişafı Mərkəzinin bu xidmətlərin rəqəmsallaşmasına və əlçatanlığın artırılmasına diqqət yetirməməsi anlaşılan deyil. Ümumiyyətlə, maraqlı məqam həm də odur ki, DİN eGov Mərkəzinin yaratdığı Asan Login sisteminə də qoşulmayıb. MyGov-da DİN yoxdur və Gov Portalında DİN-nin cəmi 3 xidməti görsənir. DİN iddia edir ki, onun ayrıca, separat formada e-Xidmət mərkəzi var. Hansı ki, bir neçə aydır qeydiyyatdan keçməyimə baxmayaraq bu separat sistemə daxil ola bilmirəm. Ümid edirəm ki, bu sistemin arxasında duran İT komanda log fayllara baxıb səbəbini araşdıracaqlar. Düşünürəm ki, DİN və eGov Mərkəzi ayrılıqda fəaliyyətə son qoymalı, mahiyyətcə kütləvi olan, ictimai əhəmiyyət kəsb edən xidmətləri elektronlaşmalı və maşın nömrələri üçün auksion satış sistemi təşkil olunmalıdır, datalar inteqrasiya olunmalıdır".

**Aynurə Pənahqızı**



**Sadə Gül**

## Bir ovuc alça...

**Mağazaya ilk girəndə mövsüm meyvələrinin rəngi diqqət çəkir. Alçaları görəndə nə alacağımı unudub meyvələr tərəfə yönəlirəm. Elə yaxınlaşan kimi üzümdəki gülüş solur.**

Buna heç də alçanın qiyməti yox, yaşı çox az olmayan oğlan uşağının bir-iki ovuc alça ilə dolu sellofanı ehtiyatlı cibinə qoyması olur.

Bir anlıq baxıb gözümü qaçırsam, ürkəkcə cibindən çıxardığı alçanı yeyəndə üzündə yaranan gülüşü görməyəcəkdim.

Balaca artıq mağazadan çıxmağı planlayır. Mən donub qalaraq, bu situasiyada nə etməli olduğumu düşünürəm. Ətrafa nəzər salaraq başımı qatmağa çalışır, hadisənin gerçək olmadığına inanmaq istəyirəm. Çox geniş olan bu supermarketdə, demək olar ki, hər yaş nümayəndəsini görmək mümkündür.



Şirniyyat alan kim, səbətini ərzaqla, meyvə ilə, çərəzlərlə dolduran kim. Balaca oğlan bir qadına tərəf yönəlir. Görünür ki, nimdaş geyimli, əlində sadəcə üç çörək olan qadın anasıdır. Onlara tərəf yaxınlaşıram, anasına qapını göstərir. Qapıdan çıxaraq anasını orada gözləyir. Bu dəfə anasına yönəldirəm baxışlarımı.

Kassaya yaxınlaşmadan cibindəki qəpikləri çıxarır, sayır. Qəpiklərin yetəcəyini görür, qabar əllərindəki qəpiklərin qalanını nimdaş geyiminin cibinə qoyur - bir ovuc alça almağa yetməyəcək qədər...

Gözlərindən bəlli olan yorğunluğunu kassir xanıma gülümsəyərək gizlətməyə çalışır.

Qapıya tərəf yol alan xanımı ürəyi həyəcan və qorxu ilə dolu olan oğlu gözləyir. Anasını görən oğlan, xanım ona yaxınlaşmamış əlindəki alça tumunu ani bir cəldliklə yerə atıb, özü ona yaxınlaşır. Mən hələ də olduğum yerdən tərpənə bilmir, onların getməsini izləyirəm. Təxminlə 3-5 addım sonra balaca oğlan arxaya boylanır.

Arxasından kiminsə gəlib-gəlmədiyini yoxlamaq üçün döndüyünü düşünürəm. Mənim baxdığımı görüb üzünü çevirir. Sonra bir də mənə tərəf baxır. Kiçik bir gülüşlə kirpiklərini qırpır. İçimdəki səs "bu, çox sağ ol"un səbəbini etdiyi səhvi mağaza işçilərinə yox, anasına bildirməməyim olduğunu deyir.

Mən də ona gülümsəyirəm. O da sevinərək üzünü çevirib yoluna davam edir. Dönüb mağazadakı alçalara baxanda gülüşüm üzümdə donur.

Bir şey almadan mağazanı tərk edirəm. Balacanın son gülüşü yadımdan çıxmır. Çünki elə o gülüşdə anlamışdım, sahibkar 1 ovuc alça ilə heç nə itirməsə də, bu hadisə insanlığın çox şey itirdiyinin göstəricisi, daha doğrusu, kasıblığın elə alça qədər turş və acı mənzərəsi idi...

# "Mənə yaşatdıqlarının ikiqatını yaşayacaqlar"



Aparıcı Zümrüd Bədəlova "Onun sirri" proqramının növbəti qonağı olub. O, həyat yoldaşından boşanmasının səbəblərini açıqlayıb. Aparıcıya ailəsinin dağılmasına səbəb olan şəxslərdən birinin adı yazılan kağız təqdim olunub.

*Zümrüd Bədəlova: "Nəinki mənim, keçmiş həyat yoldaşımın da həyatını məhv etdilər"*

**"Şərq" xəbər verir ki, o, sözügedən adamın adını çəkmədən bunları söyləyib:** "Övladım bu verilişi izləyəcək deyə ad çəkə bilmirəm. Amma hansısa qadın ailəsinin dağılmasını istəməz. Orada mütləq üçüncü şəxs olur. Mənim boşanmamda isə dördüncü, beşinci, altıncı və saysız şəxslər rol oynadı.

Keçmiş həyat yoldaşımla yaxınlarımızın istəyi, əməlləri, pis niyyətləri, ailəmi dağıtmaq mücadilələrinin nəticəsində boşandıq. Suala cavab verərəm, lakin qızım izləyir. O, kağızda adı yazılan adamın xətrini çox istəyir. Ona görə də sualı cavablandıra bilmərəm.

Bircə onu bilin ki, kiminsə sizin pisliyinizi düşünməsi belə kifayət edir. Təmizsənsə, onun pis niyyəti səni tutur. O pis duaların, qarğışların hamısı mənə təsir etdi. Kiməsə nəsə etmədim.

Sakitcə ailə qurub, buralardan çıxıb getdim. Həmin insanlar ikinci övladımın dünyaya gəlməsinin də qarşısını aldılar. Nəinki mənim, keçmiş həyat yoldaşımın da həyatını məhv etdilər. Ümid edirəm ki, kağızda yazılan adam da, onun ətrafı da mənə yaşatdıqlarının ikiqatını yaşayacaqlar".

**Samirə**

## Aysun hələ evlənməyib

"Qısa müddət sonra hər şey aydın olacaq"



**Bir müddət öncə müğənni Rəqsanə İsmayılovanın qızı Aysunun ailə həyatı qurmağa hazırlaşması ilə bağlı xəbərlər yayılıb.**

Buna səbəb onun instaqram hesabında xınayaxdı məclisindən görüntülərini paylaşıb. Aysun öz xınayaxdısı olduğunu söyləyib.

**"Şərq" xəbər verir ki, o, profilində canlı yayım açaraq izləyicilərinin suallarını cavablandırıb.** Əksər izləyici ona "Nişanlanmısınız? Evlənmisiniz?" suallarını ünvanlayıb. Müğənni mövzu haqda bunları deyib: "Hələ ki, evlənməmişəm. Qısa müddət sonra hər şey aydın olacaq".

Bir-iki izləyicisinin rəyi isə Aysunu hiddətləndirib. Məsələn, bir istifadəçi "Nişanlı deyil, sadəcə gəzir" komentini yazıb. Aysun ona "Səhv salma" deyə cavab verib. Digəri "Bu yaşda üzün üzlər görüb" şərhini əlavə edib. Müğənni onu da cavabsız qoymayıb: "Yəqin üzlər görəndə yanımda olmusunuz".

**Samirə**

## Adamın gərək adamı ola

Meyxanaçı Şəbnəm Tovuzlunu müdafiəyə qalxdı



**"Bəzi müğənnilər Şəbnəm Tovuzlunun qırıntılarıdır".**

"Şərq" xəbər verir ki, bu sözləri "Heç vaxt, heç yerdə" proqramında meyxanaçı Tərlan Novxanı deyib. O, fikirlərinə bunları da əlavə edib: "Şəxsi düşüncəmi dilə gətirə bilərəm. Bunu nə Vəfa Şərifovanı, nə də Nəfəsi nəzərdə tutub demişəm. Aqresiya ilə qarşılamayaq. Bura qalmaqal yaratmağa gəlməmişəm. Nəfəsi də, Vəfanı da dinləyirəm. Onlar məni dinləməyə bilər. O ki qaldı kiməsə şedevr deməyə... Bizim şedevrdən danışmağımıza çox var".

**Samirə**

# "Pəncü-şeş"lə gündəm yaratdı

*Lətifə Soyuöz Afəti təriflədi*



Müğənni Lətifə Soyuöz "ATV Maqazin onlarla" verilişinin "33 sual" proqramında qonaq olarkən bir neçə həmkarından danışıb. Onların sırasında Afət Fərmanqızı da olub.

**"Şərq" xəbər verir ki, L.Soyuözdən A.Fərmanqızının yaradıcılığı soruşulub. O isə sənətçinin "Pəncü-şeş" mahnısını bildiyini söyləyib:** "Onun mahnısını bilməyən insan yoxdur. Həqiqətdir ki, bu mahnılarla gündəm yaradırlar. Haqsızlıq etmək istəmirəm. "Tərzim deyil, konservatoriya bitirmişəm, bilmirəm" deyə bilərdim.

O mahnı ilə gündəm yaratdı, öz ruzisini aldı. Çox gənc yaşlarında populyarlıq qazanmadı. Onun illər əvvəlki çıxışını izlədim. Təəccübləndim.

Repertuarını dinlədim, Eldar Mansurovdan oxuyurdu. Özü də dedi ki, bunlardan pul qazana bilmirəm, beləliklə çıxış yolu tapdı. Uğurlar arzu edirəm. Efirdə şikayət etmədi, kiməsə qınamadı, "niyə siz qazanırsınız?" demədi. Altı-yeddi saat ayaq üstə dayanıb, toyda oxuyur, pulunu qazanır.

Hansı maşını sürür-sürsün, onu Allah verib. Şöhrəti illər sonra əldə etdi. Tanrı qismətini belə yazıbsa, biz necə deyə bilərik ki, niyə onda var? Həyat yoldaşından ayrılıb, bir oğul anasıdır. O da onun uşağının ruzisidir".

**Samirə**

## Mətanət İsgəndərli ölümdən dönüb

"Deyirdim, Allah, əlimi, qolumu kəssinlər, razıyam, təki nəfəs alım"



**Əməkdar artist Mətanət İsgəndərli "Zaurla günaydın" verilişində koronadan əziyyət çəkdiyi günlərdən danışıb.**

"Şərq" xəbər verir ki, o, sağ qalmağının möcüzə olduğunu söyləyib: "Ciyərlərimin 75 faizi şüşələşmişdi. Saturasiya da aşağı düşdü. Yaxşı ki, o an güzgüyə baxmadım. Oğlum dedi üzün gömgöy idi. Ayaq üstə dura bilmirdim. Təcili yardım məni gəlib aparanda vəziyyətim ağır idi. Yoluxanlar bilir ki, korona necə xəstəlikdir. Yoluxana qədər arada inamsızlıq olurdu. Bir az səhlənkarlıq etdik. Kərim də yoluxdu. Onun qızdırması çox olurdu. Mən isə boğulurdum və halsız idim. Nəfəs gəlmirdi. Deyirdim, Allah, əlimi, qolumu kəssinlər, razıyam, təki nəfəs alım. Aldığımız nəfəs üçün Allaha minnətdar olmalıyıq. On doqquz gün reanimasiyada qaldım. Günlərlə yatmışam, xəbərim olmayıb. Ayılanda gördüm ki, əllərim, ayaqlarım bağlıdır, dişim də sınıb. Ölümlə üz-üzə qaldım. Reanimasiyada dəqiqədə bir yanımda kimsə ölürdü".

**Samirə**

# Artıq başqa dünyada yaşayırıq

Müğənni Nura Suri feysbuk profilində zaman-zaman cəmiyyəti narahat edən məsələlərə, problemlərə münasibət bildirir.



*Nura Suri: "Nəinki həyatımız, beynimiz də nəzarət altındadır"*

**"Şərq" xəbər verir ki, o, növbəti dəfə mövcud durumdan yazıb. N.Suri statusunda bu sözləri qeyd edib:** "Görünən budur ki, bir müddət sonra hamı hər yerə - ticarət mərkəzlərinə, restoranlara, kinoteatrlara Covid-19 pasportu ilə gedə biləcək. Beləcə hər kəsə tam və rahat nəzarət olunacaq. Terrorizm sıfıra enəcək, oğurluq və başqa cinayət hallarının sayı azalacaq *(bircə yaxşı olan hal budur ancaq - N.S)*.

Zatən mobil telefonlar da nəzarətdədir. Nəinki həyatımız, beynimiz də nəzarət altındadır.

Əvvəllər bunları yalnız Hollivud filmlərində görürdük. İllər öncə Uill Smitin çəkildiyi bir film yadıma düşdü - "Vraq qosudarstva". 1998-ci ilin filmidir. Vaxtınız olanda baxın. Sonra isə Snovdenin açıqlamaları (əgər məlumatsızsınızsa, hətta filmi də var izləyə bilərsiniz-N.S). Yazılan kitablar, çəkilən filmlər gerçəkləşir, artıq başqa bir dünyada yaşayırıq.

"Black Mirror" serialında gördüklərimiz də yavaş-yavaş reallaşır. Sonra da deyirsiniz həyat filmlərdəki kimi olmur. Olur!".

**Samirə**

## Xatirənin fotosu birmənalı qarşılanmadı

Əksəriyyət onu Bayram Nurluya bənzətdi



**Müğənni Xatirə İslam instaqramda növbəti dəfə paylaşım edib. Lakin onun yeni fotosu, fərqli saç düzümü izləyiciləri tərəfindən birmənalı qarşılanmayıb.**

"Şərq" xəbər verir ki, əksəriyyət onu Bayram Nurluya bənzədib.

"agazade_73_" adlı istifadəçi "Elə bildim Bayram Nurludur. Çox oxşayır.

Heç bəyənmədim" rəyini yazıb.

Digəri, "Fotoya ilk baxanda B.Nurlu olduğunu düşündüm" şərhini əlavə edib.

**Samirə**

# Tək qalmağı xoşlayan adamlar...



## *Psixoloqlar tənhalığın 3 tipini müəyyənləşdiriblər*

İnsanlar üçün müəyyən vaxtlar tək qalmaq çox vacibdir. Buna görə də onlar bəzi zamanlar tək qalmaq istəyirlər. Elə adamlar olur ki, onlar başqa insanların əhatəsində olduqda belə öz-özünə qapılmağı, daxili aləminə çəkilməyi və fikirləşməyi sevirlər.

**Tək qalmağı xoşlayan adamlar daima özlərinə "sığınacaq" axtarır və tənhalığa üstünlük verirlər. Psixoloqlar tənhalığın 3 tipini müəyyənləşdiriblər:**

*** xroniki**
*** situativ**
*** keçici**

**Xroniki tənhalıq** - uzun müddət başqaları ilə ünsiyyət yarada bilməməsinin nəticəsi kimi özünü göstərir.

**Situativ tənhalıq** - insanın artıq sosial ünsiyyət modelinin dağılmasının nəticəsidir. Bu zaman insanın keçirdiyi hər hansı bir stress vəziyyəti bu cür tənhalığın yaranmasına təsir edən amil kimi özünü göstərir. Adətən bu cür tənhalığı öz əzizlərini itirmiş adamlar yaşamaq istəyirlər.

**Keçici tənhalıq** - vaxtaşırı əksər insanlarda təsadüfü özünü göstərən, keçici, ötəri bir haldır.

Əgər insanın həyatında tənhalığa gətirib çıxaracaq səbəb varsa bu situativ tənhalıq hesab olunur. Lakin həmin adam 2 il və daha artıq tənha qalmağa üstünlük verərəsə, bu xroniki tənhalıq hesab edilə bilr. İnsanların qarşılıqlı münasibətləri alınmadıqda, dostluq, məhəbbət, mehribanlıq, qayğı insan üçün yad olduqda insanlarda bir-birinə qarşı laqeydlik yaranır. İnsan o zaman özünü tənha hiss edir ki, o öz tələbatını ödəmək üçün ciddi ünsiyyət çatışmazlığı ilə qarşılaşır. Tənha insanlar həm özlərini, həm də ətrafdkı adamları neqativ qiymətləndirirlər. Adətən onlar tək qalmaqdan qorxurlar. milli.az Onların əksəriyyəti özlərini bir sıra sahələrdə əvəzolunmaz sayırlar. Onları tənhalığa sövq etdirən başqalarını yanında pərt olmaq və nə demək, nə etmək lazım olduğunu bilməmək duyğusudur.

# Azercell bir daha qanvermə aksiyası keçirdi

Şirkət əməkdaşları talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək oldu



**İyulun 27-də "Azercell Telekom"-un baş ofisində Azərbaycan Talassemiya Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara yardım məqsədilə qanvermə aksiyası təşkil olunub.**

Mərkəzi Qan Bankının həkim heyəti tərəfindən həyata keçirilən aksiyaya Azercell şirkətinin çoxsaylı əməkdaşı qatılıb. Peşəkar tibb vasitələrinin tətbiqi ilə icra edilən prosedur zamanı donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib. Həkim-hematoloqlar hər bir donoru hərtərəfli tibbi müayinə etdikdən sonra onlardan qan götürüblər. Toplanmış qan ehtiyatı Milli Hemotologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankı şöbəsində qeydiyyata alınmış və qan köçürülməsinə ehtiyac duyan uşaqlara yönəldiləcək.

Aksiyanın məqsədi talassemiya və hemofiliya, eləcə də digər irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım etməklə yanaşı, cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etməkdir. Çünki həm karantin rejiminin tətbiqi, həm də isti yay ayları ilə əlaqədar yaranmış qan çatışmazlığı həyatları qandan asılı olan hematoloji xəstələrə mənfi təsir göstərə bilər.

*Qeyd edək ki, həmin aksiya şirkətin ümumən əməkdaşlarının iştirakı ilə həyata keçirilən artıq ikinci bu cür sosial təşəbbüsdür. Hələ ötən il karantin rejiminin tətbiq olunmağa başladığı ilk aylardan Azercell Telekom baş ofisində ilk qanvermə aksiyasını həyata keçirib.*

# Yaxtanın 130 milyon avro dəyəri var

Cennifer ad gününü klub prezidentinin yaxtasında keçirib



**Dünyaca məşhur müğənni və aktrisa Cennifer Lopez ad gününü lüks bir yaxtada qeyd edib.**

Qol.az əbər verir ki, 130 milyon avro dəyərində olan yaxta Donetsk "Şaxtyor"unun prezidenti Rinat Axmetova məxsusdur. Hazırda yaxta satışa çıxarılıb və tez-tez məşhurlar və varlı insanlar tərəfindən icarəyə götürülür.

Gəmidə yeddi yataq otağı, lift, üzgüçülük hovuzu və jakuzisi olan geniş teras, hamam, spa müalicəsi otaqları, panoramik dəniz mənzərəli idman zalı, barbekyü və barın olduğu yemək otağı var. Əlavə edək ki, Lopez ad gününü sevgilisi Ben Affleklə birgə qeyd edib.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# ADA-nın "Yay düşərgəsi" Azercell-də!

Ənənəvi olaraq ADA Universiteti tərəfindən yay mövsümü ərzində ölkənin müxtəlif orta məktəblərinin şagirdləri üçün təşkil olunan "Yay düşərgəsi" proqramı bu dəfə "İnformasiya Texnologiyaları həftəsi" çərçivəsində "Azercell Telekom" MMC-yə səfər etdi.



## *Lider mobil operator məktəbliləri rəqəmsal fəaliyyəti ilə tanış etdi*

Məktəblilər ilk olaraq ən böyük Azercell Müştəri Xidmətləri Mərkəzində (Bəsti Bağırova küçəsi, 2) qonaq olub, ön masa arxasında Azercell əməkdaşlarının işini canlı olaraq izləyiblər. Onlar Azercell-də müştəriyə xidmət mədəniyyəti, müştəri məmnuniyyətinin əsasları, ön masa əməkdaşlarının abunəçilərin suallarını cavablandırması prosesi ilə bilavasitə tanış olublar.

Daha sonra Azercell şirkətinin baş ofisini ziyarət edən düşərgə iştirakçılarına şəbəkə texnologiyaları ilə bağlı məlumatlar verilib. Azercell-in ekspertləri tərəfindən mobil texnologiyaların növbəti inkişaf meylləri, əşyaların interneti, ümumilikdə İKT sahəsinin perspektivləri haqqında təqdimatlar keçirilib. Təqdimatlardan sonra məktəblilər üçün viktorinalar təşkil edilib və Azercell tərəfindən hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Azercell şirkəti uzun illərdir ADA Universiteti ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Şirkət ADA-nın təşkil etdiyi startap yarışmalarının tərəfdaşı qismində çıxış edərək karyera sərgilərində iştirak edib, universitetdə təhsil alan bir qrup xüsusi istedadlı tələbələrə təqaüd ayırmaqla onların fərdi və peşəkar inkişafına dəstək olub.

Azərbaycanda təhsil və maariflənmənin inkişafına, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssislərin yetişdirilməsinə böyük önəm verən Azercell, həm də, istedadlı şagirdlərin informatika üzrə beynəlxalq olimpiadalarda iştirakını dəstəkləyir. Şirkət xüsusi qayğıya ehtiyacı olan 1000-dən çox uşağa "Busuu" diloyrənmə tətbiqi üçün pulsuz kodlar və nömrələr təqdim edib. Bundan əlavə, Azercell şirkəti paytaxt və regionlarda "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda şagird, müəllim və valideynlər üçün təlimlər də təşkil edib.


Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1355



# Peyvənd vurdurmayanlar evdən çıxa bilməyəcəklər

Ölkədə koronavirusla bağlı epidemioloji vəziyyət olduqca gərgin olaraq qalır

**Səudiyyə Ərəbistanında peyvənd vurdurmayanlar avqustun 1-dən etibarən heç yerə gedə bilməyəcəklər.**

Dövlət onlara dövlət və özəl müəssisələrə girməyə, ictimai nəqliyyatdan istifadə etməyə və kütləvi tədbirlərdə iştirak etməyə qadağa qoyur. Oxu.az xəbər verir ki, bu barədə "Podyom" "Telegram" kanalı xəbər yayıb. Krallığın Daxili İşlər Nazirliyindən bildirilib ki, vaksinasiyadan keçən sakinlər hətta ictimai nəqliyyatdan istifadə zamanı peyvəndlər barədə məlumatlar olan xüsusi mobil tətbiqetmədəki məlumatları təqdim etməlidirlər.

*Qeyd edək ki, Səudiyyə Ərəbistanında koronavirusla bağlı epidemioloji vəziyyət olduqca gərgin olaraq qalır.*

# Şam ağacı masaya aşdı

1 nəfər öldü, 9 nəfər yaralandı



**Antalyada bağçada təşkil edilən nikah zamanı bədbəxt hadisə yaşanıb. Bu barədə "Şərq" "Habertürk"ə istinadən xəbər verir.**

Bildirilir ki, 15 metr hündürlüyündəki şam ağacı ətrafında on nəfərin əyləşdiyi masaya aşıb. Hadisə nəticəsində 44 yaşlı Mustafa Ölmez dünyasını dəyişib. Həmçinin biri ağır olmaqla doqquz nəfər yaralanıb.

**Kənan**

# Dünyanın ən böyük sapfir daşı

Evin bağçasında tapıldı



**Şri-Lankanın Ratnapura bölgəsində bir evin bağçasında dünyanın ən böyük sapfir daşı tapılıb.**

Bu barədə "BBC Türk" məlumat yayıb. Məlumatda qeyd olunur ki, ev sahibi bağçada quyu qazarkən göy rəngli iri daş parçasını üzə çıxarıb. Daşın qiymətli ola biləcəyini təxmin edən ev sahibi bu sahə üzrə mütəxəssisə məlumat verib. Qiymətli daşlar üzrə mütəxəssis doktor Gamini Zoysa daşın mavi sapfir olduğunu bildirib. Sapfir daş 510 kiloqram çəkiyə malikdir. Dəyəri isə təxminən 100 milyon dollardır. Mütəxəssis mavi sapfirin 400 milyon il əvvələ aid olduğunu da təxmin edir. Qeyd edilir ki, Şri-Lanka qiymətli daşlar ixracında dünyada öncül sıralardadır.

**Məlahət**

# Qızını boğub öldürdü

Ata bu azmış kimi evi də yandırmaq istəyib



**İstanbulda (Türkiyə) 20 yaşlı qızını boğub öldürdükdən sonra damarlarını kəsib intihar etmək istəyən ata həbsxanaya göndərilib.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, ata bu azmış kimi evi də yandırmaq istəyib. Xəstəxanada polisə verdiyi ifadədə qızının özü-özünü boğduğunu və onu xilas edə bilmədiyi üçün damarlarını kəsdiyini iddia edib. Həbs olunan ata evdəki yangını isə şamdan törənə biləcəyini deyib.

"Qızım özünü boğdu, xilas edə bilmədim", - deyən kişinin yalan söylədiyi müəyyən edilib. Hadisəni nədən törətdiyi araşdırılır.



# Qatil yaxalandı

## 16 yaşlı Yağmuru qonşusu öldürüb




**Türkiyənin Aydın bölgəsinin Didim əyalətində 16 yaşlı qızın meyiti tapılıb. Barbaros Hayrettin Paşa Anadolu liseyinin tələbəsi olan Yağmur Tayhanın çoxsaylı bıçaq zərbələri ilə qətlə yetirildiyi məlum olub.**

"Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, qətlə yetirildiyi gün Yağmur Tayhan ailə üzvləri ilə birlikdə (ata-anası və bacısı) Didimin Cümhuriyyət məhəlləsində yaşayan qohumlarının toyuna gedib. Toydan evə qayıdarkən Yağmur "bir yerə dəyib gəlirəm", söyləyərək onlardan ayrılıb. Uzun müddət keçsə də qızın evə dönmədiyini görən ailəsi narahat olmağa başlayıb. Yağmurun telefonuna edilən zənglər cavabsız qalıb. Qızın gedə biləcəyi yerlərə baxan ailə üzvləri orda da onu tapmayınca polisə müraciət edib. Polis ərazidə axtarışlara başlayıb. Qızın cəsədi Cümhuriyyət Məhəlləsindəki boş ərazidə ertəsi gün səhər saatlarında aşkarlanıb. Cəsəddə çox sayda kəsik izləri olub.



Yağmurun atası həmin məhəllədə lokum dükanı işlədir. Qızın cəsədi atasının dükanından 100 metr aralıda imiş. Yağmur Tayhanın itdiyi gün yaxınlıqdakı bir iş yerinin təhlükəsizlik kamerasına düşən görüntülərdə qızın əlində selofon paket yolu keçdiyi görünür. Qatilin tapılması istiqamətində Əmniyyət Müdirliyi dərhal hərəkətə keçib və qatil yaxalanıb. Yağmurun qatilinin qonşusu olduğu bildirilir.

**Məlahət**

# Balıq da ovladı

Burak Fahriye ilə tətilin kefini çıxarır





**Türkiyənin ATV kanalında yayımlanan "Quruluş Osman" dizisinin çəkiliş qrupu tətilə çıxdı, baş rolun ifaçısı Burak Özçivit də həyat yoldaşı Fahriye Evcen və oğlu Karanla birlikdə Bodrumda tətilin kefini çıxarır.**

Sosial mediada maraqla izlənən fotolar paylaşmağı da unutmurlar. Cütlüyün hələlik sonuncu, maraq çəkən fotosu Burak Özcivit tərəfindən iri bir balığın yaxalanmasıdır. Fahriye Evcen-Özçivit fotoya belə şərh yazıb; bu, buz dolabına necə sığışacaq?! Burak Özçivit balıq ovunu sevir, imkan tapdıqca sevdiyi məşğuliyyətə sarılır. Bu dəfə isə aktyor böyük bir balıq yaxalamağı bacarıb. Və məharətini sosial şəbəkədəki təqibçiləri ilə paylaşıb. Burakın ovladığı balığı oğlu Karana göstərdiyi anlar da sosial mediada xeyli bəyənilib.

**Məlahət**

# Messi arvadının məşq görüntülərini yaydı





**Məşhur futbolçu Messi həyat yoldaşı Antonella Roccuzzo ilə bağlı maraq doğuran paylaşım edib.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, ulduz futbolçu həyat yoldaşının idmanla məşğul olduğu anlarını sosial mediada paylaşıb. Roccuzzonun mükəmməl bədən quruluşu izləyicilərini valeh edib. Argentina ilə Copa America çempionluğunu qazanan Messinin davamçıları videoya böyük maraq göstəriblər.